

# MƏN BORÇALI BALASIYAM

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU**

***Kitab AMEA Memarlıq və İncəsənət İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur (13 noyabr 2013-cü il, protokol №6)***

**QARACAN BORÇALI**

# MƏN BORÇALI BALASIYAM

**BAKI – 2015**

**Elmi redaktor:** Vüqar Kərimli
*kulturologiya üzrə fəlsəfə doktoru, dosent*

USTAD DEYİR:

*Min doqquz yüz qırx yeddinin qışında*
*Qədim bir mahalda gəldim dünyaya.*
*Ulu Ozanların ruhu səslədi*
*Bəxtimi tellərə yazdı Xudaya.*

*Sözlərimdə ziynətə bax, gövhəri-mərcan mənəm,*
*Bakı, Dərbənd, Tiflis, Təbriz cəm Azərbaycan mənəm.*
*Sinəmdə çaylar çağlayır, sel təki coşur ürək,*
*Ümmanlara baş əyirəm, dərya Qaracan mənəm.*

*Oxu vərəq-vərəq, bax sətir-sətir,*
*Gör nələr düşünüb, nələr anmışam.*
*Bəzən kəlmələrim baş-ayaq düşüb,*
*Bəzən söz mülkündən pərvazlanmışam.*

*Saz mənim ağlayan, gülən könlümün,*
*Vuran ürəyimin öz ahəngidir!*
*Arzu ümidimin xoş gələcəyi,*
*Nurlu günəşimin alov rəngidir!*
*Odur saf eşqimin Tanrısı, dini,*
*Bu coşqun təbimin söz çələngidir!*

**ISBN** 978-9952-8012-6-2

© *Qaracan Borçalı, 2015*

# GƏRAYLILAR

## EYLƏ

Müsəlmansan, Allahına
Yön çevir, ibadət eylə!
Hər səhər, günorta, axşam
Kəlmeyi-şəhadət eylə!

Qanunu var şəriyyətin,
Tut yolunu həqiqətin.
Görsət millətə qeyrətin,
Ümmətinə hörmət eylə.

Qədərin yazısı ağır,
Kimə əvvəl, kimə axır,
Ay Qaracan, haqqı çağır,
Dür kəlamı hikmət eylə.

## HALAL OLSUN

Cəfa çəkib, El halına
Yananlara halal olsun.
Sidq ürəklə dost adını
Ananlara halal olsun.

Açmayan sirrin öyünü,
Bağlayan dostluq-düyünü,
Dar ayaqda gördüyünü
Dananlara halal olsun.

Açıb könül kitabını,
Hər kəs tapar öz babını,
Qaracan tək hesabını
Qananlara halal olsun.

## SƏBR EYLƏ

Bəxti üz döndərən könül,
Gələcəkdi, səbr eylə.
Ağlar qalmaz dövran belə,
Güləcəkdi, səbr eylə.

Alan əlinə dəyənək,
Dönüb başına döyəcək.
Göz yaşını tökən fələk,
Siləcəkdi, səbr eylə.

Qaracan, açma sirrini,
İncidib, yorma sərini.
Haqla, nahaqq öz yerini
Alacaqdı, səbr eylə.

## ELLƏR OĞLUYAM

Yurd elimin oğluyam mən,
Könüllərdə ilk baharam.
Bu torpağın sinəsində
Odu sönməz ocaqlaram.

Bu gün kövrəlmişəm yaman,
Əhvalıma çöküb duman.
Obalardan zaman-zaman
Şadlıq, sevinc soraqlaram.

Duyub düşündükcə hərdən,
Nələr gəlib keçir sərdən,
Qaracanam, zirvələrdən
Boylanıram aram-aram.

## ZARAFAT

Dilim, saxla söz atını,
Yükdü ömürdə zarafat.
Qol bükülər, qılınc kəsməz,
Yol verməz mərdə zarafat.

Şan görməz, hörmət itirər,
Qəm əkər, töhmət bitirər,
Aradan ismət götürər,
Saxlamaz pərdə zarafat.

Ay Qaracan, gəzmə çara,
Sağalmaz dil vuran yara,
Qoşulma boşboğazlara,
Salacaq dərdə zarafat.

## OLMASIN

Arzum budur, heç bəndənin
Süfrəsi nansız olmasın.
Məclislərmiz mey-məzəsiz,
Aşıq dövransız olmasın.

Yaz açıla, yaylaqlara
Karvanım düşə yollara,
Mərd igidin sabahlara
Bəxti gümansız olmasın.

Ay Qaracan, götür ələ,
Sədan düşsün dildən-dilə.
Ellərimə sevinc gələ,
Dərd də dərmansız olmasın.

## DƏRDİN ALIM

Zimistanda qalıb ömrüm,
Yazım gəlmir, dərdin alım.
Kəsilib qismətim mənim,
Ruzum gəlmir, dərdin dlım.

Yorğun düşüb köhlən atım,
Dizimdə yoxdur taqətim.
Daha dillərdən söhbətim –
-Sözüm gəlmir, dərdin alım.

Ürəyə hökm eyləmək,
Gedəni yoldan əyləmək,
Açıb hər sirri söyləmək,
Lazım gəlmir, dərdin alım.

Çox boylanma cavanlığa,
Ömür dönməz ötən çağa,
Gənclik getdi, qocalığa
Dözüm gəlmir dərdin alım.

Gəlir xəyalıma nələr
Keçmiş şirin xatirələr
Görünmür Ozan dədələr
Sazım gəlmir dərdin alım.

Qaracan ahıl çağında,
Nəvələr solu-sağında,
Daha qocalıq yanında,
Üzüm gəlmir dərdin alım.

## DÜNYA

Başdan-başa tamaşasan,
Yaranıbsan səhnə, dünya.
Açılmayır sirrin sənin,
Bağlayıbsan dəhnə, dünya.

Gəlib keçdikcə zamanlar,
Dəyişir gör neçə canlar.
Bu gün təzə yarananlar,
Sabahlara köhnə dünya.

Var qüdrəti yaradanın,
Hökümü dövranın, anın,
Yaranannan Qaracanın,
Gedirsən əlehnə, dünya.

## QARACANAM

Saf arzu, xoş diləyim var,
Müqəddəs duz-çörəyim var,
Dünya qədər ürəyim var,
Adı bəlli Qaracanam.

Nəfsimi aza bağladım,
Ömrümü yaza bağladım,
Eşqimi saza bağladım,
Oğuz dilli Qaracanam.

Ləl kəlamla dolu qabam,
Dərsim verib Ozan babam.
Arxamdadı elim, obam,
Ağır elli Qaracanam.

## DÜŞÜNÜRƏM

Gecə, gündüz, səhər, axşam
Allahımı düşünürəm.
Dərgahına sığındığım
Pənahımı düşünürəm.

Enməyin ucalmağı var,
Ömürün bac almağı var,
Gəncliyin qocalmağı var,
Sabahımı düşünürəm.

Qaracanam, yaraşmayan,
Özüm ilə barışmayan,
Yerə-göyə sığışmayan
Günahımı düşünürəm.

## QARACAN BORÇALIYAM MƏN

Dədələrdən dərs almışam,
Çox elmidən halıyam mən.
Açılmamış bir kitabam,
Nə Ələsgər, Alıyam mən.

Məni görmək istəsəniz,
Axtarmayın ünvanmı siz,
Harada məclis görsəniz,
Bilin ki, oralıyam mən.

Könlüm eşqin butasında,
Xoş xəbərlər sədasında,
Sənətkarlar sırasında
Qaracan Borçalıyam mən.

## MƏNİM

Pozulsa da düzələcək
Səliqəm, səlqarım mənim.
Ola bilməz düz gəlməsin
Gəlirim, şıxarım mənim.

Səbir dünyam gen olacaq,
Ürək açan gün olacaq.
Mən kiməmsə, mən olacaq
Vüqarım, İlqarım mənim.

El tanıyır Qaracanam,
Eşq əhliyəm, yara canam.
Əgər görsən yarı canam,
Dayağım ol, yarım mənim.

## NEÇƏ ELDƏ, MAHALDAYAM

Sazım, mənə yol açıbsan,
Göz açandan bu yoldayam.
Mizrab məni dilləndirir,
Pərdə-pərdə xəyaldayam.

Çox hardadır, azdan soruş,
Bənövşəni yazdan soruş,
Ünvanımı sazdan soruş,
Neçə eldə, mahaldayam.

Ay Qaracan, bülbül kimi
Oxusun qəlbinin simi.
Dostlar soranda kefimi,
Sazım, sən de, nə haldayam!



## BALA-BALA

*Anam Töhvəyə*

Keçəcəkdir aylar, illər
Üstümüzdən bala-bala.
Desin, gülsün ana, dillər
Bizi yada sala-sala.

Gələr ömrümün baharı,
Gedər könlümün qubarı,
Görünür dağların qarı
Gözlərimə tala-tala.

Aydır, gündür keçirərik,
Sağlıq olsun, görüşərik!
Bir deyərik, bir gülərik
Qaracan saz çala-çala.

*1967, hərbidə.*

## CEYRANIM

Sən şöləsən, mən başına
Dolananam, a ceyranım.
Səməndər tək atəşinə
Qalananam, a ceyranım.

Xoş ətirin əsdi mənə,
Gözlərinin şəsdi mənə,
Bircə baxış bəsdi mənə,
Dərd qananam, a ceyranım.

Gecələrin nur işığı,
Ellərin ozan aşığı,
Məclislərin yaraşığı
Qaracanam, a ceyranım!

## DAĞLAR

Nə gələn var, nə də gedən,
Bağlanıbdı yolun, dağlar.
Zirvələrnə qar ələnir,
Dərələrnə dolun, dağlar.

Gedər bu müşgül halların,
Gələr karvan qatarların,
İnşallah, gülər baharın,
Açar qönçə gülün, dağlar.

Qəhəri qəlbindən silib,
Müqəddəs səcdəgah bilib,
Sizə ziyarətə gəlib
Qaracan tək qulun, dağlar.

## NƏVƏM AYLAYA

Telin ipək, özün ürək,
Zülflərin şəlalə balam.
Beşiyin nur, yuxun şirin,
Anan çalsın layla balam.

Ətirin dağlar lalası,
Nəfəsin dərdlər çarası,
Camalın günəş parası,
Gözlərin piyala balam.

Qızların bir dənəsisən,
Qaracanın nəvəsisən.
Sabahların nənəsisən,
Ay mənim gül Ayla balam.

*15.11.2009*

## BƏNÖVŞƏ

Boyun bükmə qəm baxışla,
Din ahəstə, ay bənövşə,
Mən də dərddən gileyliyəm,
Oldum xəstə, ay bənövşə.

Fərağını elə yaydın,
Kaş ki, səni olmayaydın,
Kol dibindən yol salaydın
Sinəm üstə, ay bənövşə.

Süzdürüb mavi gözləri,
Keçmişdən qaytar izləri,
Qaracanın dür sözləri
Ələm bəstə, ay bənövşə.

## HƏYAT YOLDAŞIM BALLI XANIMA

Dağların seyrinə çıxaq,
Adın düşsün dilə, Ballı.
Gəl görüşək, qoy desinlər
Bülbül qonub gülə, Ballı.

Lalə, nərgizdən dəribsən,
Sinəmin üstə səribsən.
Güldən, çiçəkdən zərifsən,
Bənzətmərəm gülə, Ballı.

Qaracanın zatı, əsli
Gözdə gülsün bahar fəsli.
Biz olsaq da Kərəm, Əsli,
Can dönməsin külə, Ballı.

*1972*

## QOCALDIM

Gəzərdim köhlən belində,
Qaldım piyada qocaldım.
Keçirdiyim xoş günləri
Saldıqca yada, qocaldım.

Şah mülkümə şah gələrdim,
Qış ömrümü yaz bilərdim.
Əsa alıb qoca dərdim,
Xal düşdü ada, qocaldım.

Məndəkini bilirdim mən,
Hər dərdləri sinirdim mən,
Çoxlarına gülürdüm mən,
Qaldım ah-vayda qocaldım.

Keçirdim cavan vaxtımı,
İtirdim qızıl taxtımı.
Taleyim yatan bəxtimi,
Bəlkə oyada, qocaldım.

Getdi kef-damağım, dəmim
Yan alır çalxanan gəmim
Xülyalar olub həmdəmim
Fikrim ziyada qocaldım.

Ay Qaracan, çəkmə kədər.
Üzdü səni qəza-qədər,
Aydı-gündü  gələr, gedər,
Belədi qayda, qocaldım.

## GÖSTƏRMƏ MƏNƏ

Yaxşılığa yamanlığı
Edəni göstərmə mənə.
Bəd əməllərin dalınca
Gedəni göstərmə mənə.

Qanmaz görsəm, qanan ollam,
Dərdli görsəm, dərman ollam.
Dəli görsəm, səcdə qıllam,
Gədəni göstərmə mənə.

Qaracan çağlar təbini,
Saxlayar elin dəbini,
Dost olub, onun cibini,
Güdəni göstərmə mənə.

## MƏNİM

Sel də gəlsə yara bilməz
Bərkdi bərəm-bəndim mənim.
Heç vaxt məndən aralanmaz,
Elim, Obam, Kəndim mənim.

Meydanlarda mərd durmuşam,
Boyunlar, qollar burmuşam
Hələ ki, yorulmamışam,
Cəld işləyir fəndim mənim.

Qaracanam, elmi sirrəm,
Dəryada gövhər gəzirəm,
Teli-teldən tən seçirəm,
Aldatmayır zəndim mənim.

## QARAÇI

Talehindən gileylənib
İncimə bəxtdən, qaraçı.
Səninki belə yazılıb,
Yaranan vaxtdan, qaraçı.

Ayrılmaz taylı-tayından,
Qane ol kimsə payından,
Sənin bu hay-harayından,
Oldum qulaqdan, qaraçı.

Qaracanı alıb ələ,
Yaş axıtma gilə-gilə,
Əl aç sidq ürəklə dilə,
Qisməti haqdan qaraçı.

## BELƏLƏRİ DƏ VAR

Ad qazanıb, baş ucaldan,
Adı eldə batan da var.
Qeyrətlə ömür qocaldan,
Şərəfsiz boy atan da var.

Beyqeyrətin, görən nədən?
Başını saxlayır bədən.
Asıb papağnı hərmədən,
Yaylıq altda yatan da var.

Kimsəyə yoxdur möhtacı,
Gəl ona baxma qıyqacı,
Əyilməz vüqarlı tacı,
Qaracan tək Sultan da var.

## QONDARMA AŞIQLARA

Dedilər ki, aşıq gərək
Məclislər oxşayan olsun.
Demədilər küçələrdə
Qapıları sayan olsun.

Aşıqsansa məğrur dayan,
Mətin dursun sənət dünyan,
Ay sənəti anlamayan,
Üzündə bir həyan olsun.

Görməyən ustad kamalı,
Olmaz sənətindən halı,
Yarat, Qaracan Borçalı,
Nəsillərə bəyan olsun.

## OLA

Doğrasa  da of  demərəm,
Ərzi - halım mərdə ola.
Vay o gündən dost dəyişə,
Sirr-sözü namərdə ola.

Kişi gərək irişməyə,
Yanqır olub dəyişməyə,
Əyalında deyişməyə,
Aralıqda pərdə ola.

Qaracan, qanrılıb köçün
Gəl sızlama için-için,
Arzulara çatmaq üçün,
Ağıl gərək sərdə ola.

## KÖNLÜNDƏ-KÖNLÜNDƏ

Qaş altından süzən gözəl,
Nə var könlündə-könlündə?
Məni məndən üzən gözəl,
Nə var könlündə-könlündə?

Alıbsan güllər dəstinə,
Qurbanam gözün şəsdinə,
Durubsan canım qəsdinə,
Nə var könlündə-könlündə?

Qaracan haqqına quldu,
Tanrı yazan doğru yoldu,
İndi mənə aydın oldu
Nə var könlündə-könlündə.

## AŞIQ VƏ BÜLBÜL

Bülbül, tər gül mənim də var,
Mənmi sənəm, sənmi mənsən?
Sən çəkən qəm məndə də var,
Az sızılda, az inlə sən!

Köklənmişik zil-qəm üstə,
Oxuyuruq hey ahəstə.
Yuva qurmuşuq qəfəsdə,
Qəmdaşıq, hər yetənmisən.

Birdi ələm-fəqanımız,
Həm ünümüz-üsyanımız.
Bir yaranıb bu dünyamız,
Qaracanın həmdəmisən.

## ETİBARSIZ

Sevib, seçib bəyəndiyim,
Niyə oldun etibarsız?
Bir quş olub yad bağına
Niyə qondun, etibarsız?

Mətləb qansa yar-yarından,
Şirindi dünya varından.
Bəs verdiyin ilqarından
Niyə döndün, etibarsız?

Qaracanam, Kərəm demə,
Eşqin məni əydi qəmə.
Bir dərd olub ürəyimə
Niyə doldun, etibarsız?

## BALASAN

*Vəfa Tofiq qızına*

Tanrı səni tək yaradıb,
Gözləri göyçək balasan.
İpək tellərin qurbanı,
Yanağı ləçək balasan.

Sözlərin incidir, inci,
Qəlbinin boldur sevinci.
Evdə, eşikdə birinci,
Eldə ağbirçək balasan.

Qaracan tərifin eylər,
Tamaşana durar ellər.
Səndən uzaq əssin yellər,
Çəməndə çiçək balasan.

*1997-ci il*

## OLA

Məhəbbət o kəsdədir ki,
Könlünü verməmiş ola.
Qəlbini verdiyi kimsə
Sevdanı bilməmiş ola.

Yar ola yarını anan,
Can ola canında yanan,
Nolaydı sevdiyin sonan
Özgəni sevməmiş ola.

Yar doymaz yar dodağından,
Bülbül də gül budağından.
Qaracan tək tər bağından
Gülləri dərməmiş ola.

*1965*

## TƏRGİ MEY

Çox peşmanam, bir zamanlar
Mey, səninlə "dost" olmuşam.
Nahaq yerə "peyman"ına,
"İlqar"ına inanmışam.

Aldım ələ badələri,
Hədər keçirdim günləri.
Biz həmdəm olandan bəri,
Nə tapıb, nə qazanmışam.

Bax bu gündən, lap bu andan
Uzaq dolan Qaracandan
Mən bu qəflət yuxusundan
Vədəsində oyanmışam.

*25.02.1997*

## YAXŞIDI

Hər bir sözü, hər kəlməni
Düşünsən, öncə yaxşıdı.
Yersiz-yersiz danışmaqdan,
Dinləsən məncə, yaxşıdı.

Səfası var hər çağında,
Aranında, yaylağında.
Azərbaycan torpağında
Gəzməyə Gəncə yaxşıdı.

Qaracan söyləyər sərdən,
Dərsin alıb Dədələrdən.
Nadanlardan, gədələrdən
Dolansan gencə, yaxşıdı.

## MEHRİBANIM

Hər zaman sənin adını
Anan mənəm Mehribanım.
Bülbül olub budağına
Qonan mənəm, Mehribanım.

Qoşa xallar naxışından,
Xumar gözlər axışından.
Mətləbini baxışından
Qanan mənəm, Mehribanım.

Qaracan Məcnun dağında,
Gəzir Leyli sorağında,
Eşqinin şam-çırağında
Yanan mənəm, Mehribanım.

## MƏNİ

Etibarsız, fani dünya,
Etdin bəxti qara məni.
Bir insafsız dərd verənim
Gətiribdi zara məni.

Urcah oldum bağrı qana,
Qoyub məni yana-yana.
Zalım girir dondan-dona,
Yaman salıb tora məni.

Ah-vay edən Qaracanam,
Dərdimi kimə açanam,
Haram var, hara qaçanam,
Saxlar ancaq bura məni.

## ÜMÜDİMDƏN QIRDI MƏNİ

Nagahdan bir mələk donlu
Öz dünyamdan aldı məni.
Bir könlümə min ox atdı,
Kəməndinə saldı məni.

Apardı əqlimi əzəl,
Gül istədim, verdi xəzəl.
Dedim gəl dost olaq, gözəl,
Şahmar kimi çaldı məni.

Qaracan olmazmı heyran,
Görməmişdim belə ceyran.
Sevdasına sərdim guman,
Ümüdimdən  qırdı məni.

## ŞƏRƏFLƏ UCALAN MƏNƏM

Sənətinin metdanından
Mərdanə bac alan mənəm.
Ömürünün zirvəsinə
Şərəflə ucalan mənəm.

Eşq odu təki sönməyən,
Dağdan alçağa enməyən,
Yolundan geri dönməyən,
İnadı öc olan mənəm.

Gözüm yoxdur tamahından,
Dünyanın dövlət varından,
Tükənməz arzularından
Doymayan, ac olan mənəm.

Çıxanın imandan, dindən,
Haqq saxlasın əməlindən.
Ağlını qanmaz əlindən
İtirib, gic olan mənəm.

Amalından, niyyətindən,
İlhamından, Sənətindən,
Yaradanın qüdrətinnən
Əzmlə güc alan mənəm.

Qaracan anlar yerində,
İncilər gəzər dərində,
Dünyanın qeyrət sərində,
Zinəti tac olan mənəm.

## DOĞRU, DÜZGÜN YAZAN MƏNƏM

Bu sevdanın dəryasında
İlhamımla üzən mənəm.
Pərvaz edib səmalarda
Yorğun-yorğun süzən mənəm.

Qoymaz yerə kürəyini,
Qırmaz ümid dirəyini.
İnsanların ürəyini
Bir baxışla sezən mənəm.

Nələr gəlməyib başıma,
Zəhər qatıblar aşıma.
Baxmayıblar göz yaşıma
Neçə dərdə dözən mənəm.

Dağ çəkibdi qəm sinəmə,
Kədər olub cəm sinəmə,
Sazımdı həmdəm sinəmə,
Aşıq mənəm, ozan mənəm.

Hər mətahın var qiyməti,
Hər gülün öz təravəti.
Qaracanam, həqiqəti
Doğru, düzgün yazan mənəm.



## CEYRAN

Oğrun-oğrun süzüb məni,
Nə çəkirsən dara, ceyran?
Sızıldayan yaram üsdə
Sən də vurdun yara, ceyran.

Məni saldın haldan-hala,
Necə dözüm bu məlala?
İnsafdımı həsrət qala
Əllərim şux nara, ceyran?

Al yanaqlı, xətti-xallı,
Şux baxışlı, ləbi ballı,
Tər buxaqlı, gül yanaqlı,
Söylə gedim hara, ceyran?

Ver payımı dil-dodaqdan,
Yandırıb-yaxma uzaqdan.
Yollarına boylanmaqdan
Oldum bəxti qara, ceyran!

Qaracan qurban boyuna,
Həsrətəm cənnət qoynuna.
Qolum qulacdı boynuna,
Səndə tapdım çara, ceyran!

## BORÇALININ XRAM ÇAYINA

Həsrətinlə yaşayıram,
Doymamışam Xram, sənnən,
Qəlbimdəsən, baxmayaraq
Uzaq düşüb aram sənnən.

Qəlbimdə çağlayan çayım,
Qucağında yurd alayım,
Sən oldun ana laylayım,
Bir də beşik quram sənnən.

Qəm, kədərim sevinc qapdı,
Ürəklərə könül yapdı,
Qüdrətinlə şəfa tapdı,
Sağalmayan yaram sənnən.

İllərlə pozulmaz aran,
Dar ayaqda dayaq duran,
Bir sinədə qoşa vuran,
Dost ürəkli Kürəm sənnən.

Qaracanam, el dolaşan,
Söz mülkümdü aşıb-daşan,
Sən çağlayan, mən də coşan,
Axıra dək varam sənnən.

## AŞIQ CƏMİL QAÇAĞANLI

*"Borçalının Xram çayına" nəzirə*

Ay Qaracan hamı bilsin
Nə ki, varam, varam  sənnən.
Arada əğyar oynasa,
Pozulmazdı aram sənnən.

Babakərlə qonuşmursan,
Kef, halını soruşmursan,
İldə bir yol görüşmürsən,
İncimızmi Xram sənnən.

Oyçuların oy yerində,
Çəl təzə iz qoy, yerində.
Xramın sızqoy yerində,
Axşam tarpı quram sənnən

Dan çökəndə tarpa baxam
Yıxşırannan sonra yıxam,
«Mirzə»ləri şişə taxam
Sonra əlli vuram sənnən

Ocax yana, köz qızara.
Balıxlar bişə, bozara,
Təpik vurram dərt-azara
Baxma ixdiyaram sənnən.

Vəfası yoxdu həyatın,
Hökümü var hər saatın,
Video çəkən aparatın,
Qənşərində duram sənnən.

Mən Cəmiləm söz dilimdən,
Coşğun olub əzəlimdən,
Saz döşümdə "yüz" əlimdən,
Heç geri qalmıram sənnən.

## OLDU

Ərənlərin ətəyindən
Tutan əllər yetən oldu.
Kürənlərin yedəyinnən
Gedənlər də itən oldu.

Yorulan yolun azandı
Yıxılan, dərin qazandı,
Haramxor atlas qazandı,
Geyindiyi kətan oldu.

Bax, bunlardı alan şöhrət,
Halal nemət, əsil züryət,
Qeyrət, qüdrət, bir mərifət,
Qalan hər şey ötən oldu.

Gələnlər kəsdi ayağı,
Görünmür məclis yığnağı,
Heyif sənə mərd ocağı,
Yurdda qalan şötən oldu.

Yazımı yazdı yaradan
Ayrıldım eldən, obadan.
Qismətim nənə, babadan
Bir həsir, bir çətən oldu.

Keçdikcə ömürdən illər,
Üzülür əllərdən əllər.
Ay Qaracan, qürbət ellər,
Axır sənə Vətən oldu.

## MƏN BORÇALI BALASIYAM

Oğuzların qədim yurdu,
Babalarım mənzil yordu,
Bu ömür uzanan yoldu,
Əsirlərin naləsiyəm,
Mən Borçalı balasıyam.

Bu yerlərdə şair Nəbi
Şeir dedi, coşdu təbi.
Gəldi sazın, sözün dəbi,
Eldən ilham alasıyam,
Mən Borçalı balasıyam.

Könlüm niyə həvəssizdi?
Xan Kamandar əvəzsizdi!
Deməsinlər nəvəsizdi,
Ozanların nəvəsiyəm,
Mən Borçalı balasıyam.

Əmrah bir könül çırağı,
Şəyirdləri solu, sağı,
Dünya bizə qəm oylağı,
Ürəklərə damasıyam,
Mən Borçalı balasıyam.

Tükənməzdi mənim yazım,
Yurd həsrətli xoş avazım,
Dillən görüm, telli sazım!
Hələ səni çalasıyam,
Mən Borçalı balasıyam.

Qaracanam, yaman yerdə
Dərdim oldu pərdə-pərdə,
Köhlənimin zirvələrdə
Yalmanına yatasıyam,
Mən Borçalı balasıyam.

## ŞİRİN XATİRƏLƏR

Əzizim, hərdən yadıma
Gördüyüm günlərim gəlir.
Ömürümdən gülüb keçən
Uşaqlıq illərim gəlir.

Günəş açanda səhəri,
Minib çapardım kəhəri.
Gənclərin görüş yerləri
Çeşmə bulaqlarım gəlir.

Gecəsi-gündüzü toylu,
Cavanları şümşət boylu,
Kəndimizin palçıq yolu,
Çardaqlı damlarım gəlir.

Qırqovul təki səkdiyim,
Hərdən qayğılar çəkdiyim,
Köksündə güllər əkdiyim,
Növrəstə çağlarım gəlir.

Üzlü qatığın ovduğu,
Boylu "Qulancar"ın zoğu,
Qoca palıdın oyuğu,
Çətir budaqlarım gəlir.

Gecələr əlimdə yaraq,
Bərələrdə durdum sayaq,
"Mal binəsi", "Güllü yaylaq",
Yurdum, oymaqlarım gəlir.

Qaracan, gəzmə qürbəti,
Göynədib əymə qaməti,
Özü gül, sözü şərbəti,
Əhdə vəfadarım gəlir.

## DAĞLAR

Səni gördüm, xəyalımdan
Nələr keçdi, nələr, dağlar.
Ahu kimi dərd sinəmdə
Mələr, dağlar, mələr, dağlar.

Hər görəndə sərvinazı,
Ürəyim eylər pərvazı.
Saf eşqimin gur avazı,
Daş-qayanı dələr, dağlar.

Zirvələrin ağ zolaqlı,
Quzeylərin buz bulaqlı,
Güneylərin göy yaylaqlı,
Gül üzlərə gülər, dağlar.

Gördüm mərdlər davasını,
Çəkdim eşqin cəfasını,
Xəstə könlüm şəfasını
Gəlib səndən alar, dağlar.

Diz qoymuşam bulağına,
Söz qoşmuşam oylağına,
Bahar çağı yaylağına
Ağır ellər gələr, dağlar.

Qoymaram ki, çöksün sükut,
Dərdi, qəmi bəsdi unut,
Yağışını ötən bulud,
Saçlarıma ələr dağlar.

Qayalar alçaq-ucalı,
Zirvələr çətin qocalı,
Aşıq Qaracan Borçalı
Səndən ümid dilər, dağlar.

## DOSTUM ƏHMƏDXANA

Ay Əhmədxan, dövrümüzün
Ön çağları yadındamı?
Kəndimizin at oynadan
Qoçaxları yadındamı?

Ayaq çarıx, papaq dəri,
Otarardıq sürüləri,
Atamızın yurd yerləri,
Yataqları yadındamı?

"Babəkər"dən kəndə sarı,
Yol gəlirdik gecə yarı,
Ağbabanın çobanları,
"Parax"ları* yadındamı?

Zirvəsi qarlı qılıcın,
Yaşıl çəmənli yamacın,
"Oy dərə"si, "Qara xaç"ın
Yaylaqları yadındamı?

Məktəbli, şən dostlarımız,
Kiçik sinif otağımız,
Balağı gen şalvarımız,
Yamaxları yadındamı?

Eçqinə qul olduğunun,
Oduna kül olduğunun,
Bir qara pul olduğunun,
Yanaqları yadındamı?

Əməyini müəllimlərin,
İtirsək, tökülər irin.
Hərdən Qurbanov Sabirin
Şallaxları yadındamı?

Gecələr qarda, boranda
Cəhlimdə tonqal çatanda,
Qaracanla küst tutanda
Badaxları yadındamı?

---

***Parax** – itlərə nişanədir*

## SÜNNƏT TOYUNDA

Tanrıdan qismətim, oğul,
Mübarək, toyun mübarək!
Dövranım, davamım oğul,
Mübarək toyun, mübarək!

Elimizin var adəti,
Haqq önündə ibadəti,
Peyğəmbərin şəriyyəti,
Mübarək toyun, mübarək!

Adəti-iman eylədik,
Könül şadiman eylədik,
Sizi müsəlman eylədik,
Mübarək toyun, mübarək.

Kəsərəm qurban qoyunu,
Bəslərəm göyçək boyunu,
İnşallah, böyük toyunu
Mübarək toyun, mübarək.

## BAX

Aç gözünü ay çərənçi,
Məndəki  səbirə bir bax.
Özgə gözdə tel gəzirsən,
Öz gözündə tirə bir bax.

Kimsə sənlə uya bilmir,
Ürəyini duya bilmir,
Yeddi  dəniz yuya bilmir,
Qəlbindəki kirə bir bax.

Vardı həyatın qanunu,
Geyibsən iblis donunu,
Görmürsən ömrün sonunu,
Mizana, Minkirə bir bax.

Sərçə kimi cikkildəmə,
Çəpiş kimi məkkildəmə,
Qodux kimi kəkkildəmə,
Nəriıldəyən şirə bir bax.

Qurubsan şeytan tasını,
Tutubsan bayquş yasını,
Çıxart tülkü libasını,
Aslana, bəbirə bir bax.

Güc verilib taqətimə,
Sənətimə, səadətimə,
Gəlirlər ziyarətimə,
Qaracan tək pirə bir bax.

## DAĞLAR

Bulaq üstə qatar, qatar,
Çadır binələrin dağlar,
Yayılıbdı yaylaqlara,
Çoban sürülərin, dağlar.

Qartallar zirvə dolaşır,
Əmlik quzular mələşir,
Cövlan eyləyib kişnəşir,
Köhlən bədöylərin dağlar.

Aslanların nərəsində,
Maralların bərəsində,
Qaracanın sinəsində,
Çağlayır sellərin, dağlar.

## DOSTUM VƏLİ ƏSGƏR OĞLUNA

Şagird-gənclik illərimiz,
Yadındadımı ay Vəli.
O vaxtdan qoyulub bizim,
Dostluğmuzun ilk təməli.

Xalqın xeyir duasısan,
Mərd kişinin övladısan,
Elin müdrik balasısan,
Arxanda durub Təkəli.

Qaracan  ürəkdən desin,
Xoş dövranların görünsün,
Həyatın gülə bürünsün,
Əsməsin payız xəzəli.

## AĞRIN ALIM

Gəl soruşma “neyniyirsən”,
Neyniyəjəm, ağrın alım!
O dağlardan endim daha
Neyniyəjəm, ağrın alım!

Haqq yolunda şər əlləşir,
Pələnginən xər* əlləşir.
Bəxtim özümlə güləşir,
Neyniyəjəm, ağrın alım!

Var dilimdə elmi-kəlam,
Keçən günlər yada sallam,
Qaracandan sizə salam,
Neyniyəjəm, ağrın alım!

---

***Xər*** *– uzunqulaq.*

## MƏNƏ

Vəfalı dost, haqdan gəlib,
Bu hökmü fərmandı mənə.
Gəl, üz vurma götürmərəm,
Biləm ki, dərmandı mənə.

Üz döndərəndən bəridi
Ürəyimdən daş əridi,
Elə bilmə ötəridi,
Demə ki, gümandı mənə.

Qaracanam, var günahım,
Pənahımdı, bir Allahım,
İndən belə səcdəgahım,
Müqəddəs Qurandı mənə.

# QOŞMALAR

## AŞIQ ƏLƏSGƏRƏ

Sənət dünyasının qızıl taxtının
Əyləşib üstündə tac alan ustad.
Gahdan Kərəm kimi odlanıb yanan,
Gahdan Koroğlu tək bac alan Ustad.

Coşqun təbin odlu, eşqin qanadlı,
Kamil sənətkarsan sədalı, adlı,
Barmaqlar sehirli avazın dadlı,
İlhamı günəşdən güc alan Ustad.

Çox gəndin öyəni yordun meydanda,
Sənəti yaşatdın ilikdə, qanda,
Yayda yaylaxlarda, qışda aranda
İxtiyar çağında dinc alan  Ustad!

Çıxdınız dağların dar yoxuşunu,
Tanrı sizə verdi şahlıq quşunu.
Açıb sinəsinin gen ağuşunu
Qorqud qollarında qucalan Ustad.

Qaracanam, mən də yetdim murada,
Səcdə qılıb baş əyirəm Ustada.
Sənət zirvəsinə bu böyük ada,
Qalxıb zaman-zaman ucalan Ustad.

## SÖZ DE, SÖZ OLSUN

Kəlmə hecalayıb qafiyə gəzmə,
Qüdrətin vardırsa söz de, söz olsun.
Üç günə, beş günə unudulmasın,
Hər sözün dillərdə alov, köz olsun.

Dədəm Qorqud böldü hikməti pay-pay,
Qurbani sehrindən bədirləndi Ay,
Ələsgər sözünnən ucaltdı saray,
Ustadlar yanında üzümüz olsun.

Zərgər məqsədinə çatarsa, gözəl,
Sənət yadigarı gəzəcək əl-əl,
Qaracan, tələsmə, fikirləş əzəl,
Fikrin aydın olsun, sözün düz olsun.

## GƏRƏK

Taledən qismətin, payın olanda
Onu vədəsində yeyəsən gərək.
Ürək coşa gəlib, sinə dolanda
Kəlməni yerində deyəsən gərək.

Böləsən dost ilə dərdi-sərini,
Biləsən məclisdə sözün yerini.
Anlayıb, düşünüb xeyir, şərini,
Bar verdin, başını əyəsən gərək.

Qaracan, od ola ürəkdə, canda,
Eşqi yaşadasan ilikdə, qanda.
Düşmənin qılıncı kəskin olanda
Paltarı poladdan geyəsən gərək.

## AĞRIMA ÜRƏYİM, AĞARMA SAÇIM

Dünyanın dəm yükü, qəm karvanı var,
Ağrıma  ürəyim, ağarma  saçım.
Hər insan ömrünün bir dövranı var,
Ağrıma  ürəyim, ağarma  saçım.

Demə tale sönüb, ömür yorubdu,
Zaman dönüb, dövran yara vurubdu.
Dürlü yaraların dildən olubdu,
Ağrıma, ürəyim, ağarma, saçım.

Yaraq, dəmir donum, mərd libasım var,
Açılan əllərə iltimasım var,
Hələ alınmamış bir qisasım var,
Ağrıma, ürəyim, ağarma, saçım.

Bəzən olur əhvalıma çən gəlir,
Vücudum göynəyir, dilim titrəyir,
Körpə nəvələrim tumar istəyir,
Ağrıma, ürəyim, ağarma, saçım.

Ay Qaracan, çəkmə dərdi-qəm, kədər,
İxtiyar ömrünü eyləmə hədər.
Dünya belə gəlib, belə də gedər
Ağrıma, ürəyim, ağarma, saçım.

## NƏ QALDI

*Aşıq Alının "**Nə qaldı**" rədifli*
*qoşmasına nəzirə*

Kəlamına qurban, ay aşıq Alı,
Olanı sən dedin, bizə nə qaldı?
Beyinlər düşündü, ayaq yeridi,
Mənzil başa çatdı, izə nə qaldı?

Dolandı fəsillər, köçdü nəsillər,
Sökdü yaş bürcünü ömürdən illər.
Dağıldı bərələr, yeridi sellər,
Çökdü zirvələrim, düzə nə qaldı?

Xəyalım dünyanı gəzdi, dolaşdı.
Sonsuz arzularım kükrədi, daşdı.
Ay Qracan, ömür əllini aşdı,
Ağardı saqqalın, üzə nə qaldı?

## TƏKƏLİ SEİD SUCAYA

Ağır bir mahalın ağsaqqalısız,
Sizə hörmətim var ay Suca müəllim!
Mömin bəndələrin qibləgahısız,
Adınız hər yerdə var uca müəllim.

Seid Həşim babam Dədəmdi mənim,
Hikmət nəsihəti tövbəmdi mənim,
Yurdu Səcdəgahım, Kəbəmdi mənim,
Getmərəm Məkkəyə, Meraca müəllim.

Səcdə ziyarətim var yaradana,
Gündə baş əyirəm, Haqqı Qurana,
Müqəddəs ocağa müdrik insana,
Hələ borcludu Qaracan, müəllim.



## ELOĞLUM ADİL ƏMCƏN OĞLUNA

Sən bizim elmizin fəxri oğlusan,
Elin qüdrətindən güc aldın,Adil!
Məram tutdun məqsədinə yetişdin,
Dönmədin geriyə öc oldun, Adil!

Çox qılınclar öz qınına çəkili,
Çoxlarının gözdə qaldı şəkili,
Çoxdan olmalıydın millət vəkili.
Təəssüf, bir balaca gec oldun , Adil.

El üçün düşündün,yaratdın, qurdun,
Elə arxalandın, yolunda durdun,
Məzluma əl tutdun, yağını vurdun,
Şərəflə bir ömrü qocaldın, Adil.

## ŞƏYİRDLIƏRİMİN SUALLARINA CAVAB

Məndən soruşursuz; - çox sevdiyiniz,
Hansı aşıq, hansı şair olubdur?
Əvvəla deyim ki; -Şairlik eldən,
Aşıqlıq Adəmə Haqqdan gəlibdir.

Sənət meydanına çoxları gələr,
Tab gətirə bilməyən tərk edib gedər,
Mənim ürəyimdə, aşıq Ələsgər,
Vurğun Səməd xüsusi yer tutubdur.

Dadı olmaz meyvələrin kalının,
Yeri məlum Qul Abbasın, Alının,
Sinəsində Qaracan Borçalının,
Çeşmələr qaynayır, ümman yatıbdı.

## VARIYMIŞ

Keçən həftələrin, ötən günlərin
Həm qarası, həm də ağı varıymış.
Kiminin üzünü ağ gün ağardıb,
Kiminin sinədə dağı varıymış.

Adam var qılıncdan kəskindir sözü,
Sönməyir sinədə atəşi, közü.
Kiminin çiçəyə həsrətdir gözü,
Kiminin bağçası, bağı varıymış.

Tanı, ay Qaracan, yaxını, yadı,
Qoru ömür boyu şərəfi, adı,
Kiminin aşında dünyanın dadı,
Kiminin aşında ağı varıymış.

## TELLƏR

“Cəngi”nin üstündə meydan qızanda
Mən səni bənzətdim aslana, tellər.
Sən mənim qəlbimsən, qəlbi, ürəyi
Qoymaram nəm çəkə, paslana, tellər!

Məni məhəbbətə, həyata bağla,
Çay kimi harayla, sel kimi çağla.
Demirəm dərdə düş, demirəm ağla,
Nə çıxar fikirdən, yasdan, a tellər!

Duymaz o naləni hər yetən gədə,
Qəlbinə xal salar, könlünə zədə.
Qaracan, əl vurub dindirən vədə
Yazar tərifini dastana tellər.

## YERİNDƏDİ

*“Çoxdandı gəlmirəm bu dağlara mən,*
*Dərə yerindədi, düz yerindədi”*

***Əvəz Lələdağ***

Gördüyün yaylaqlar,Əvəz Lələdağ,
Əzəl qaydasında, öz yerindədi.
Kəsilmir yığnağı gur bulaqların,
Ocaq yerindədi, köz yerindədi.

Gəl, bizim dağlarda dövrana bir bax,
Atlanır igidlər, cövlana bir bax,
Gözəllər çıxanda seyrana bir bax,
İşvə yerindədi, naz yerindədi.

Yaradan xəlq edib belə cənnəti,
Gözləri güldürür gül təravəti,
Qaracanın Tanrı verən qisməti,
Avaz yerindədi, saz yerindədi.

## MƏN

*Kosalı Zülfüqar müəllimin evində*

Çəkilmir dumanım, çənim, çiskinim,
Uca dağ başında boran, qaram mən.
Sellərə qovuşan çaylar kimiyəm,
Göz yaşı çağlayan bulaqlaram mən.

Sultan, Xan deyiləm taxtımda yatam,
Əhdim var səsimi səslərə qatam,
Sizin eldən olub rəhmətlik atam,
Kosalı İsadan yadigaram mən.

Qaracanam, gördüm cahanda nələr,
Ömrümdən bac alır lal qərinələr,
Dədələr qədrini dədələr bilər,
Yollar ayrıcında çıraqlaram mən.

*Bakı, 1997-ci il*

## ELƏ BİL BU KƏNDDƏ YAŞAMAMIŞAM

Nə gördüyüm qalıb, nə qoyduğum iz,
Elə bil bu kənddə yaşamamışam.
Mənmi dəyişmişəm, yoxsa kəndimiz,
Elə bil bu kənddə yaşamamışam.

Bir qalaydı Həsən bəyin binası,
Nəsil balaların məktəbxanası,
Əgər ki, mən qoyanmasam mirası,
Elə bil bu kənddə yaşamamışam.

Qaracanam; - kiməm? - bilə bilmərəm,
Beyqeyrət dərdini bölə bilmirəm,
Öz ata yurduma gələ bilmirəm,
Elə bil bu kənddə yaşamamışam.

## ÇOBAN ƏMİ

*Başkeçid dağlarında bir çoban məndən*
*mərhum atamı xəbər alanda*

Sinəmdə dağ yolu, aran yolu var,
Ürəyi dağlıyam, ay çoban əmi!
Yoxdu ürək dostum, könül sirdaşım,
Dil deyib ağlayam, ay çoban əmi!

Göylərə dayanıb ahım-amanım,
Çəkilib qəlbimdən dinim, imanım,
Hanı dərd bilənim, hanı loğmanım,
Amanlı, ahlıyam, ay çoban əmi!

Ay Qaracan, belə yazdı yaradan,
Seçənmədim mən bu ağı qaradan,
Köçdü çoban İsa, getdi aradan,
Mən onun oğluyam, ay çoban əmi!

*may 1985*

## HEYİF

Əl tutdum, qəlb açdım, könül güldürdüm,
Demədim çoxuma, azıma heyif.
Ləyaqətsiz şərəfsizlər yolunda
Canımı üzmüşəm, özümə heyif.

Allahsız bir yerdə, böyüksüz evdə
Xəcalət çəkərmiş nur dədələr də.
Gəda yığnağında, mərəkələrdə
Ləl tək söhbətimə, sözümə heyif.

Qaracanam, bunlarıymış gördüyüm,
Dərd eviymiş zəhmətimlə hördüyüm.
Qədirsizə əllərimlə verdiyim
Halal çörəyimə, duzuma heyif.

## OLACAQDIR

Düşmə biyabana, divanə könlüm,
Demə dünya hər vaxt var olacaqdır.
Bir gülün ki, qayğısını çəkməsən,
Əlbəttə, üstündə xar olacaqdır.

Vaxtında bürünər dağlar qarına,
El-oba varına, bağlar barına,
İnanma dünyanın etibarına,
Axirət mənzili gor olacaqdır.

Yaş tökür gözlərim hey narın-narın,
Quluyam düz əhdin, düz etibarın,
Qaracan, qəm yemə, bivəfaların
Ömrü-günü ahu-zar olacaqdır.

## SAZIM

*25 noyabr 2000-ci il tarixində baş verən zəlzələdə sazımın divardan döşəməyə düşüb sındığını görəndə*

Səni belə görmək inan ki, mənim
Gəlməzdi eynimə, a telli sazım.
Ürəyimdən qopdu sınan tellərin,
Gəl, alım qoynuma, a telli sazım.

Bu nə dərddir, dərdim üstə qaladın,
Qəm odunu kürəyimdə qaladın,
Aç qolunu, o şaxəli qanadın
Dolansın boynuma, a telli sazım.

Dərd olar ürəyi yaralı gəzmək,
Səni tək bir dostdan aralı gəzmək,
Qaracanam, qəlbi qaralı gəzmək
Yaraşmaz şaynıma, a telli sazım.

## YADIMA DÜŞDÜ

Dolandı dağları xəyalım yenə,
Güllü yaylaqlarım yadıma düşdü.
Sal qayalar sinəsindən süzülən
Lilpar bulaqlarım yadıma düşdü.

Toylarında kəhərləri yorduğum,
Bulaq üstə məclisləri qurduğum,
Arxalanıb, dayağında durduğum
Yurdum,  Alaylarım yadıma düşdü.

Yad oldu dost-tanış, yox gəlib-gedən,
Dövlət də yan keçir, bilmirəm nədən.
Qaracanam, uzaq-uzaq ellərdən
Gələn karvanlarım yadıma düşdü.

## ODUMUZA-ODUMUZ

*"Özgələrdən bizə xəta toxunmaz,*
*Eyləməsək özümüzə-özümüz"*

***AşıqAlı***

Dedim gəlin, qol-qola bərk tutuşaq,
Dayaq dursun dizimizə-dizimiz.
Bir dolanaq ocağmızın başına,
Alov versin odumuza-odumuz.

Demədim ki, meydan açaq, cəng edək,
Söz gəzdirək, başımızı dəng edək,
Deyirəm ki, yolumuzu tən gedək,
Qoy qoyulsun izimizə-izimiz.

Qaracanam, kəsərəm mərd çörəyi,
Mərd yurdunda qurmalıyam dirəyi,
Siz yaba götürdüz, bis də kürəyi,
Qarışıbdı tozumuza-tozumuz.

## MƏNƏ

Fələyin gözündən necə düşmüşəm,
Rəhim eyləmədi yazan da mənə.
Mərifətdən, qanacaqdan danışır
Hər ağlı, kamalı azan da mənə.

Çoxunun sözünü kəsdim ;- olubdu,
Quru, boş qərargah postum* olubdu.
Gəlhagəl günümdə dostum olubdu,
Ayağmın altını qazan da mənə.

Bağlandı xanələr, vermədi zərim,
Adım Qaracandı, soyadım Kərim.
Şad olaram əgər desə ellərim,
Dərviş də, dəli də, ozan da mənə.

---

***Postum*** *– Təyin olunmuş ərazi.*

## SARYAL

*"Saryal" adlı bir atım var idi.*
*Onun oğurlandığı xəbərini eşidəndə çox*
*kədərləndim və bu şeri ona həsr etdim.*

Axurundan səhər, axşam, günorta
Tükənməzdi arpa, darı Saryalın.
Bürkü vurub xəflədəndə böyənək,
Şeşələrdi qulaqları Saryalın.

Atam dedi, çərləmişi çıdarla,
Qaşovlayıb, yalmanını tumarla,
Nalbənd çağır, dırnaqların hamarla,
Yalın qalıb ayaqları Saryalın.

Hörüklədim, dedim bir az otlasın,
At oğrusu, görüm gorun çatlasın.
İnsafdırmı indi piyada qalsın,
Qaracan tək vəfadarı Saryalın.

## QARDAŞIM MƏHƏRRƏMƏ

Gəl soruşma mənim hal-əhvalımı,
Ağ günüm olubdu qara, qardaşım.
Nə müddətdi yan üstündə qalmışam,
Tapılmır dərdimə çara, qardaşım.

Nədənsə canımdan qaıxıb ağrılar,
Nə ana axtarar, nə ata yoxlar,
Dərdimi bilənmir "sarı qulaqlar",
Gül zamanım dönüb xara, qardaşım.

Hər vətən oğlunun deyil hesabı,
Qaracan tək zülmə gətirsin tabı.
Qəriblik həsrəti, "qubbax" əzabı
Haraya sığılar, hara qardaşım?!

*1968, hərbidə xəstəxanada.*

## QARDAŞIM MƏHƏRRƏMİN MƏZAR DAŞINA

*Mərhumun dili ilə*

Məni nə tez belə saldın atından,
Qoymadın dikəlib, düzəlim, dünya.
Sənin etibarın bura qədərmiş,
Bu imiş axırım, əzəlim, dünya.

Hardan gəlib bitdi bu daş başımda,
Oxu bu ağını bu baş daşımda,
Necə qıydın mənə əlli yaşımda,
Bir də ya gəlməyim, ya gəlim, dünya.

Mən qalan deyildim bu ahu-zarda,
Əcəl yaxaladı gör məni harda,
Gəlib uzanmışam bu dar məzarda,
İndi öz başımdı, öz əlim, dünya.

*2002-ci il*

## TƏBRİZ

Bir şirin arzuma çatmışam bu gün,
Görüşdüm səninlə Təbrizim mənim.
Elə billəm cənnət qucağındayam,
Alıb qollarına əzizim mənim.

Sevincim çiçəyə, gülə bürünüb,
Həsrətim həftəyə, ilə bürünüb,
Açılmaz bir incə telə bürünüb,
Ürəyinə bağlı nəbizim mənim.

Burda duydum Şəhriyarın nəfəsin,
Abbasın, Qasımın, Qəribin səsin,
Qəbul eylə Qaracanın töhfəsin,
Barı səndə qalsın bir izim mənim.

*Təbriz, 1996*

## ÖZ AMANIM, ÖZ AHIM

*Avtomobil qəzasında*

Zalım fələk yenə durdu qəsdimə,
Öz torunu qurmalıydı, qurdu da!
Oxlarını nişanlayıb üstümə,
Əvvəl-axır vurmalıydı, vurdu da!

Kədər dönük taleyimə yazıldı
Axı nədən, bu il belə nəs ildi,
Qolum gücdən, dilim sösdən kəsildi,
Qanadımı qırmalıydı, qırdı da!

Qaracanam, öz amanım, öz ahım,
Yerə, göyə sığışmayır günahım.
İndən belə deməliyəm Allahım
Köməyimə durmalıydı, durdu da!

## DANIŞMAQ

Haqdan yaranmışam, haqq aşığıyam,
Sənətimdi həqiqətdən danışmaq.
Nəsihətdən, yol ərkəndən, ədəbdən,
Mərifətdən, Təriqətdən danışmaq.

Dahilər önündə baş əyir bəşər,
Deyirlər, qardaşdı xeyir ilə şər.
Varsa Quran əhli, yerinə düşər,
İbadətdən, Şəriyyətdən danışmaq.

Soruş Qaracandan Leyli, Məcnunu,
İgid Koroğlunu, aşıq Cununu.
Budur, bala, sənətimin qanunu,
Layiq deyil yad sənətdən danışmaq.

## HƏQİQƏT

Diz çöküb sürünər, üz üstə yatar,
Ancaq heç bir zaman ölməz həqiqət.
Gec olar, güc gələr, məqsədə çatar,
Yolundan geriyə dönməz həqiqət.

Olub pərvanəsi diləklər onun,
Hürülər, Pərilər, Mələklər onun,
Alovnu söndürsə küləklər onun,
Közü közərəcək, sönməz həqiqət.

Bəd əməldən, əyri yoldan gen qaçır,
Göz oxşayır, könüllərə yol açır,
Şəfəqləri ürəklərə nur  saçır,
Gün kimi heç zaman solmaz həqiqət.

## YALAN

Doqquz don geyindir, doxsan naxış vur,
Yenə görünəcək kiri yalanın.
Qoysan da qapalı sandıq içinə,
Axır açılacaq sirri yalanın.

Nəyi varsa hər bəndənin canında,
Qınamıram, o qaynayar qanında,
Aqil, Alim, Mömin bəndə yanında,
Görübsənmi ola yeri yalanın?

Atalar deyib ki, doğruya yalan,
Düşmən yaranıbdı aşıq Qaracan.
İtər Yer üzündən silinər, inan,
Tapılmaz heç yerdə goru yalanın.

## BƏSİMDİ

Dünyanın malında tamahım yoxdur,
Tanrı nə verirsə, o da bəsimdi,
Az da, çox da birdi, Yaradan məni
Möhtac eyləməsin yada, bəsimdi.

Niyyəti xoş olar könlü abadın,
Böyük şöhrəti var şərəfli adın,
Müxənnətin, Nanəcibin, Xoryadın
Gəlsə ürəyinə qada, bəsimdi.

Qaracanam, vardı haqqa qulluğum,
Gələr-gedər yoxsulluğum, bolluğum,
Gözünə, könlünə qurban olduğum
O ki, salır məni yada, bəsimdi.

## MƏNİM ÖZ MƏNLİYİM, MƏTİNLİYİM VAR

Hər kimsə nəsihət verməsin mənə,
Mənim öz mənliyim, mətinliyim var.
Heç də uymayıram yetən deyənə,
Mənim öz mənliyim, mətinliyim var.

Hörümçək torunu hörsə yaxşıdı,
Çal köpək zəncirdə hürsə yaxşıdı,
Hər kəs öz köçünü sürsə yaxşıdı,
Mənim öz mənliyim, mətinliyim var.

Qaracanam, hər lay-laya yatmaram,
Dərd yükünü dəm köçümə qatmaram,
Sərraf yoxsa, mətahımı satmaram,
Mənim öz mənliyim, mətinliyim var.

## DOLANDIRIR

*Ay hazarat, bir zamana gəlibdi,*
*Dövlətli yanında qul dolandırır.*

***Aşıq Alı***

Aşıq Alı, dövran indi başqadır,
Zəmanəni şirin dil dolandırır.
Alaçatı, iki üzlü, fırıldaq,
El içində fitvə-fel dolandırır.

Zikr etsən də dərin pür kamalını,
Bilənməzsən bu Fələyin halını.
Xəsisin başına dünya malını,
Yoxsulun başına kül dolandırır.

Sənət dünyasına yaxşı bax, tanı,
Tanrı tək yaradıb qul Qaracanı,
Avazında yetmiş iki havanı,
Barmağında on bir tel dolandırır.

## KÖÇÜBDÜ

*Təkəli aşıq Mustafanın vəfatına*

Ay hazarat, Borçalı mahalının,
El aşığı, Mustafası köçübdü.
Xanələr göynədi, dillər ağladı,
Məclislərin zövq-səfası köçübdü.

Gümüş tellər bağlı qaldı pərdədə,
Neçə dastan sirli getdi sinədə,
Sənətkarın yaratdığı səhnədə,
Sözü qaldı, ləl ifası köçübdü.

Sənətimi yolda qoydu yaradan,
Axıra dək dərs almadım ustadan,
Qul Qaracan Borçalının, dünyadan,
Kamil-sənət bir ustası köçübdü.

*2003-cü il*

## QAYIT GƏL

Sən mənim eşqimin yadigarısan,
Qaldı yollarında gözüm, qayıt gəl!
Hər qəmə, hər dərdə məndə dözüm var,
Yoxdur sənsizliyə dözüm, qayıt gəl!

Kimsəynən nə əhdi-peymanım yoxdu,
Yerdən göyə qədər gümanım yoxdu,
Bu canımdan başqa qurbanım yoxdu,
Sənə qurban olum özüm, qayıt gəl!

Nə gəldisə gəldi mənə fələkdən,
Baş açmadım bu qurğudan, kələkdən,
Qaracanam, gülənmirəm ürəkdən,
Bağlı qalıb dil, ağızım, qayıt gəl!

## KİRVƏLƏR

Arzu eyləyirəm Uca Tanrıdan,
Bu qohumluq varsın başa, kirvələr.
Məclis-məramlarda, eldə, obada,
Adınız çəkilsin qoşa, kirvələr.

Axıb dizinizə tökülən o qan,
Müqəddəsdir, Peyğəmbər qanununnan,
Könlünüz üstünə, könül damından,
Çıxmayın ki, torpaq düşə, kirvələr.

Od közərsin, ocağınız gur olsun,
Evinizdə toy şənliyi qurulsun.
Borçalı Qaracan təşrif buyursun
Qapınıza xeyir işə, kirvələr.

## QONŞULAR

Atalar deyiblər, “Uzaq qohumdan,
Qardaşdan da yaxın olar qonşular.”
Ağır anlarında, dar günlərində,
Hər zaman qeydinə qalar qonşular.

Məğrur qüdrətini, mərhəmətini,
İpək ülfətini, pak ismətini,
Yoxsulluq üz versə, son qismətini,
Qardaş malı kimi bölər qonşular.

Misal var ki, “Xain gözdə nur olmaz”,
“Qonşunu yox dilən, özü var olmaz”.
Ay Qaracan, qonşu yolu dar olmaz,
Könüldən bir körpü salar qonşular.

## GÜNAHDI

Allaha xoş getməz, var əsirgəmə,
Səxavət əlini kəsmə, günahdı.
Tanrının verdiyi qismətə şükür,
Dövlət üz döndərsə, küsmə, günahdı.

Taledən iqbalın yatıbsa əgər,
Haqqa ağır gedər, eyləmə qəhər,
Xəzan küləyi tək hər axşam, səhər,
Meyl edib hər yana əsmə, günahdı.

Qaracan, şükür et, xoş keçər dövran,
Yorulmaz yol ilə gedərsə insan.
Bir iş görən zaman təmkinlə davran,
Səbirli ol, çox tələsmə, günahdı.

## 20 YANVAR HADİSƏLƏRİNƏ

*T.Üfiqə*

Gözümə tor çəkdi, ürəyimə dağ,
Yurdum yad ellərdə qalandı, Allah.
Dövranmı dəyişdi, yoxsa ki, zaman,
Fələk çərxi tərsə dolandı, Allah.

Düz yolda tükənməz halal zəhmətim,
Müqəddəs vətənim, məğrur millətim,
Var-dövlətim, bol nemətim, sərvətim,
Düşmənin əlində talandı, Allah.

Yox bazarı bu satqımın, alqımın,
Kökü düşüb, Ay Qaracan, çalqımın,
Qanda axır göz yaşları xalqımın,
Qönçə güllər üstə çiləndi, Allah.

*1990*

## TOYNUZ MÜBARƏK!

Dil açsın arzular, dil açsın ürək,
Könül xoşluğunnan kəsək duz-çörək,
Hamı nuş eyləsin badəni gərək,
İçək, a bəy-gəlin, toynuz mübarək!

Arzu diləyiniz getməsin bada,
Çox şükür, toynuzda oldum tamada,
Sevinclə yaşayın qoca dünyada,
Gülək a bəy-gəlin, toynuz mübarək!

Sevinən ürəklər vədə gözlərmi,
Belə məclisdən də adam bezərmi,
İllah, Qaracanda söylə dözərmi
Ürək a bəy-gəlin, toynuz mübarək!

## HAQQ, ƏDALƏT

Nə tufandı yenə mənim başımda,
Çən-çənə qarışıb, duman-dumana.
Nişanlanıb, düz dayanıb qaşımda,
Yay çəkilib, ox söykənib kamana.

Düz danışdım, dabanımdan soydular,
Gördüm dedim, gözlərimi oydular,
Dillənmədim, qanmaz yernə qoydular,
Budur haqqın-ədalətin, zamana!

Ay Qaracan, boş keçirmə vaxtını,
Axtarginən iqbalını, baxtını.
Quranmazsan haqq-ədalət taxtını,
Nahaq yerə düşübsən əl-amana.

## NƏVƏM BELLAYA

Könüllər bəzəyi, qönçə ləçəyi,
Büllur bulaqların aynası balam.
Bu günün pərisi, huri-mələyi,
Sabahın ağbirçək anası balam.

Qurbanlar kəsilir həftə, ayına,
Zibalar biçilir göyçək boyuna,
Ellər gəlib şad-mübarək toyuna,
Geyinsin gəlinlik libası, balam.

Ömür yolun günəş kimi çıraqlı,
Əlin bərəkətli, yurdun ocaqlı,
Suyun axar olsun, evin qonaqlı,
Budur Qaracanın duası, balam.
*02.07.2006.*

## VÜQAR

*Oğlum Vüqarın anadan olması günü*
*münasibəti ilə*

Çox şükür Allahın verdiyi paya,
Yetirdi bu gözəl nübarı bizə.
Ömrümüzün yoxsul, kasıb çağında
Bu dövləti bizə, bu varı bizə!

Bütün nemətlərin neməti oldu,
Canıma can verən qüvvəti oldu,
Evimin işığı, ziynəti oldu,
Qışda gətiribdi baharı bizə.

Qaracanam, yoxdu ahım, amanım,
Nur səpir üzümə açılan danım.
Tale töhfə verib, ay Ballı xanım,
Sənin bayramında Vüqarı bizə.

*7 mart 1975 il*

## OĞLUM İLQARA

Uca dağın qaydasıdır, ay oğul,
Saxlayır sərində neçə il qarı.
Sən də dağlar kimi, zirvələr kimi
Neçə il qocalıb, neçə il qarı.

Arxanı xalqına, elinə bağla,
Xalqınan gülünən, elinən ağla,
Hər zaman canında, qanında saxla
Sədaqəti, etibarı, ilqarı.

Oğul gərək özü qazana adı,
Oğuldur atanın ağzının dadı.
Budur, bala, Qaracanın muradı-
Yaşat əməlinlə adın İlqarı.

## OLSUN

Ay ana, sən Allah körpə Vüqarın
Üstündə gözlərin amanat olsun.
Nadincdi, oynaqdı, incimə ondan,
Həmişə təsəllin ibadət olsun.

Səhərdən axşama dolansın bağı,
Ömrümün, günümün yanar çırağı.
Cavan çağlarımın qaynar bulağı
Ömrə şəfa verən bir həyat olsun.

Qışda arana gəl, yayda yaylağa,
Axşam quymağa tut, səhər qaymağa.
Yuxusu gələndə apar yatmağa,
İncimәsin, canı qoy rahat olsun.

Qucağa götürmə, özü yerisin,
Körpə ikən baldırları bərkisin.
Beçədən, fərədən bişir qoy yesin,
Tamı dahanında dad, ləzzət olsun.

Mən onu ömrümə bahar demişəm,
Həm dövlət demişəm, həm var demişəm,
Vüqarlı dağ kimi, Vüqar demişəm,
Bəşərdə ad alıb bir övlad olsun.

*May, 1976.*

## NAŞÜKÜR OLMADIM, OLMARAM DA MƏN

Yarandım, göz açdım, haqqımı bildim,
Naşükür olmadım, olmaram da mən.
Həyatda şəkər də, zəhər də yedim,
Naşükür olmadım, olmaram da mən.

Yaşadım qışı da, yazı da gördüm.
Şeir-sənət duydum, sazı da gördüm,
Çoxu görmüş idim, azı da gördüm,
Naşükür olmadım, olmaram da mən.

Dəmim günə çəkdi, dərdim il-aya,
Gözlərim gah güldü, gah döndü çaya,
Qaracanam, Tanrı verdiyi paya
Naşükür olmadım, olmaram da mən.

## TOYDA

*(yarı doğru, yarı zarafat)*

Arzum budur, əziz dostlar, qonaqlar,
Açılsın, qalmasın düyün bu toyda.
Deyin, gülün, şənlik edin ürəkdən,
Bahar libasını geyin bu toyda.

Söz cana yayılsın, mənası dərin,
Saz məlhəmi olsun dərdin, dərdlərin,
Hərdən-hərdən mənə xələt göndərin,
Eyləyim tərifin bəyin bu toyda.

Köhnə tamadayam, billəm işimi,
Gözdən buraxmayın Qəmbər kişini.
Çəkin ortalığa, sökün dişini,
Sallaq dodağını əyin bu toyda.

## OLMUŞAM

Bilməm soyuq dəyib, yoxsa bədnəzər,
Yaman ağrıyıram, naçaq olmuşam.
Taqətim yoxdur ki, yanına gələm,
Elə bilirsən ki, qaçaq olmuşam.

Heç mənim halımdan almırsan soraq,
Müddətdi xəstəyəm üzündən iraq,
Dostumun gözünə yanar bir çıraq,
Düşmənin gözünə bıçaq olmuşam.

Baş açmıram, bu dövranın felindən,
Qan tökülür, zəhər yağır dilindən,
Qaracanam, haqsızlığın əlindən
Dağılmışam, saçaq-saçaq olmuşam.

## XANCIĞAZLI

Dostum, çox olmuşam, yaxşı bələdəm
Xram kənarında Xancığazlıda.
Qeyrət, qüdrət keşiyində mərd durub,
Elin cavanı da, ağsaqqalı da.

İgid ərənlərni bir üzdə gördüm,
Bir dildə, bir yolda, bir izdə gördüm.
Sənət hikmətini Firuzda gördüm,
Hatəm səxavəti Dədə Alıda.

Ümüdi Allahda, kəlamı dildə,
Üzü Qibləgahda, əlləri əldə,
Bir zamanlar bu mahalda, bu eldə,
Dövran sürdü Qaracan Borçalı da.

## NƏDƏNDİ, NƏDƏN

Gözəlim, bilmirəm nədəndi, nədən,
Kövrək ürəyimə qan ələnibdi.
Sinəmdən süzülən dastan bulaqlar
Qəmli kök üstündə bəstələnibdi.

Könlümün dövlətə yox ehtiyacı,
Səfərim uğursuz, qismətim acı.
Müddətdi tapılmır dərdim əlacı,
İqbalıma ələm, dərd bələnibdi.

Bu fələyin hökmü qətidir, qəti,
Onda kim görübdü insaf-mürvəti,
Qaracanın qəm göynədən möhnəti
Könül dünyasında dəstələnibdi.

## QALDI

Amandı, a dağlar, göz-qulaq olun,
Qoynunda könlümün maralı qaldı.
Boranın, çovğunun kəsdi yolumu,
Ürəyim ürəkdən aralı qaldı.

Həsrət qaldım, yar yanında gülmədim,
Dindirmədim,bir əhvalın bilmədim,
Əl uzadıb şamamanı dərmədim,
Tağların qoynunda saralı qaldı.

İntizaram, görənmirəm o vaxtdan,
Ayrılmışam xoş xəbərdən, soraqdan.
Qaracanam, yollarına baxmaqdan
Gözüm yaşlı, qəlbim yaralı qaldı.

## DEYƏ

Gözlərim yuxunun keşiyindədi,
Ösgələr röyanə girməsin deyə.
Könül bağçasında açılan gülü
Əğyarın əlləri dərməsin deyə.

Hər zaman yolunda durmuşam mətin,
Vəfalı ilqarın, saf məhəbbətin,
Xoryad, bizdə olan səmimiyyətin
Arasına divar hörməsin deyə.

Qaracan keşikdə dayanıb özü
Ki, dəyməsin sənə nadanın sözü,
Şəfəq şüaları, bədnəzər gözü,
O gül camalını görməsin deyə.

## OLMA

Ala gözlüm, sənlə keçən günləri
Yad edib yadına salmamış olma.
Səhər yellərindən, dağlar mehindən
Sorub əhvalımı bilməmiş olma.

Ayrı düşsək biz aylara, illərə,
Dözülməyən həftələrə, günlərə,
Əgər yolun düşsə bizim ellərə,
Gəlib bizdə qonaq qalmamış olma.

Dərdə düşsün düzü tərsə əyəni,
Tanrı vursun Qaracana dəyəni
Axır nəfəsimdə çağırsam səni,
Amandı, yanıma gəlməmiş olma.

## OLUM

Mən sənin hər yerdə, hər zaman, hər an
Adını anmışam, anmamış olum.
Tükənməz arzumun şam, çırağının
Şöləsi sanmışam, sanmamış olum.

Sənə yaranmışdı hər inam məndə,
Bilmədim düşəcəm fəndə, kəməndə,
İldə bir gün olar, mən sənin gündə
Qurbanın olmuşam, olmamış olum.

Qaracanam, göydən endi pərvazım,
Görünür beləymiş qismətim, yazım,
O saxta eşqinin, ay sərvinazım,
Oduna yanmışam, yanmamış olum.

## NƏ MİNNƏT ETMİRƏM, NƏ YALVARMIRAM

Sənə söz deyirəm mərdi-mərdana,
Nə minnət etmirəm, nə yalvarmıram,
Ayaqlarnı qaldırma nərdivana,
Nə minnət etmirəm, nə yalvarmıram.

Mən deyirəm sən bu yoldan dönəsən,
Töbə edib, haqq yoluna gələsən,
Dönmürsənsə, dur get, o yol, o da sən,
Nə minnət etmirəm, nə yalvarmıram.

Qaracanın görməmisən dalğasın,
Elə et ki, səbir kasam dolmasın,
Razı döysən, olan günün olmasın,
Nə minnət etmirəm, nə yalvarmıram.

## GÜLÜR

Bu gün şad günündür, a mehribanım,
Çəmən gülür, çiçək gülür, gül gülür.
Xeyir-duam, xoş arzum var sizlərə,
Qiblə gülür, səcdə gülür, əl gülür.

Çox şükür Tanrıdan gələn qismətə,
Sənə kəm baxanı düşsün zülmətə.
Sizdə olan ay camala, ismətə,
Könül gülür, ürək gülür, dil gülür.

Zimistan keçəndə gələr güllü yaz,
Qızıl güldə ətir, Bülbüldə avaz.
Qaracanın sinəsində simli saz,
Barmaq gülür, pərdə gülür, tel gülür.

## GÖZƏL

Kirpiyin ox kimi deşdi sinəmi,
Gözlərin gözümə baxanda, gözəl.
Lalə yanaqların aldı canımı
Şimşək tək sinəmdə çaxanda, gözəl.

Könlünü könlümdən salma irağa,
İlahi yazmasın səni qırağa.
Bənzətdim camalın bir şam çırağa,
Cismimi yandırıb yaxanda, gözəl.

Yardın ürəyimi, tökdün qanımı,
Sökdün, yelə verdin xanimanımı,
Qaracanam, aldın yazıq canımı,
Oxları sinəmə sıxanda, gözəl.

## BİLSƏYDİM DÜNYAYA ERKƏN GƏLƏRDİM

Həyatın bu qədər şirinliyini
Bilsəydim, dünyaya erkən gələrdim.
Ömrün mənasını, dərinliyini
Bilsəydim, dünyaya erkən gələrdim.

Kimlər bilir Atalar bildiyini,
Dədələr gördüynü, el dediyini,
Ələsgərin, Alının gəldiyini
Bilsəydim, dünyaya erkən gələrdim.

Qaracanam, eldə tac almağımı,
Şərəflə bir ömrü qoçalmağımı,
Sənət zirvəsinə ucalmağımı
Bilsəydim, dünyaya erkən gələrdim.

## GƏTİRMİŞƏM

Mübarək günündə, bu şad günündə
Gəlmişəm, əlimdə gül gətirmişəm.
Ey mənim əzizim, sənin qarşına
Təmiz ürək, şirin dil gətirmişəm.

Bu gün bahar gəldi, açıldı yazım,
Dindi bülbüllərim, səsləndi sazım.
Ay ömrüm, ay günüm, ay şux avazım,
İşvənlə canımı al, gətirmişəm.

Qaracanam tər bağımda barımla,
Yayda günəşimlə, qışda qarımla.
Mən sənə ən gözəl arzularımla,
Gün deyil, ay deyil, il gətirmişəm.

*1972*

## CEYRAN XANIM

Tanrı səni qüdrətindən yaradıb,
Aləmi - cahansan, a Ceyran xanım.
Yusifdən xəlq olub hüsnünə şölə,
Dağlarda lalasan, a Ceyran xanım.

Karvan kimi köçüb gedən nəsilmiş,
Təəssüflənmə, bu il belə nəs ilmiş,
Hər tərəfin bəndir-bəndir kəsilmiş,
Alınmaz qalasan, a Ceyran xanım.

Qaracanam, xoş avazlı havamın,
Sənə olan saf  arzumun, duamın,
Dərdin alım, dərdli köçən anamın
Laylasın çalasan, a Ceyran xanım.

## KƏSİLDİ

İxtiyar çağımda, ahıl yaşımda,
Qapımdan mey yüklü karvan kəsildi.
Açıldı könüllər şad oldu ruhlar,
Dost evlərdə neçə qurban kəsildi.

Səhər oyananda qalxıb o başdan,
Sübhan eyləyirəm xəngəldən, xaşdan,
Tor gözdən çəkildi, duman da huşdan,
Elə bil təbiət əlvan kəsildi.

Köklənib səsimin zilinən, bəmi,
Tünd olmasın daha çayımın dəmi.
Ay Qaracan, səslə Ozan dədəmi,
Artıq mey-məzəli dövran kəsildi.

*fevral 1997-ci il*

## MƏCBUR OLDUM YAZAM

*Rəqib tərəfə keçib mənə qarşı duran,*
*iki üzlü yaltağa.*

Dostlar, mən günahsız heç bir tərəfə,
Nadanlıq eyləyib daş atmamışam.
Nə qalxan şahmara aman vermişəm,
Nə yatan aslanı oyatmamışam.

Aşakara sözümü eyləyim bəyan,
Məcbur oldum yazam mən həcv-hədyan.
Ara qarışdıran ay qoca madyan,
Mən ki, sənə dəyib, dolaşmamışam.

Tor çəkərəm, dünya gözünə görünməz,
Dağ çəkərəm, sinən üstən silinməz,
Turp əkərəm yerin-yurdun bilinməz,
Qaracanam, oyağam yatmamışam.

## YAZIR, YAZSIN

Deyirlər ki, məndən yazır bir "dost"um,
Yazır, yazsın, bu da belə kürənmiş.
Üst-başımı dartışdıran az deyil,
Bu köpək də bir tərəfdən hürənmiş.

Yanğır deyiləm ki, aralıq qatam,
Qəhərdən yük tutam, nifrətlə yatam,
Qeyrət sarayımı ucaldıb Atam,
Səbir dünyam bir qırılmaz kərənmiş.

Ay Qaracan, meydan alıb gədələr,
Saz götürüb, sözlə bizi hədələr,
Nadan məclisində aqil dədələr
Xəcalətdən baş ağartmış, bel əymiş.

## SƏN SAMAN ALTINDAN SU YERIDƏNSƏN

Gözlərin kəlləndə oynayır sənin,
Sən saman altından su yeridənsən.
İçində tufanlar qaynayır sənin,
Sən saman altından su yeridənsən.

Mən görürəm bəd işlərdə əlin var,
Cadu əməllərin, fəndi-felin var,
Sənin yeddi sirrin, yeddi dilin var,
Sən saman altından su yeridənsən.

Qaracanam, sənə son sözüm budur,
Bir daha nə yalvar, nə boynunu bur,
Məndən uzaq dolan, tamam gendə dur,
Sən saman altından su yeridənsən.

## BAŞ ÜSTƏ

*(Beyqeyrətin dili ilə)*

Mənim cibim dolsun, nə qeyrət, nə ar,
Tül örpək altında yatım?...
Baş üstə.
Doğmamı, Yadımı, Nəsil, Kökümü
Beş günlük şöhrətə satım?...
Baş üstə.
Qeyrəti, qüdrəti soxma gözümə,
Bu sözləri çox vurublar üzümə,
Dostuma, yoldaşma, lap öz-özümə
Kələk, dolaq gəlib atım?...
Baş üstə.
Mən bilmərəm namus nədi, ar nədi,
Qohum nədi, Qardaş nədi, yar nədi,
Elə ki, beynimdə qurd dingildədi,
Aləmi bir-birnə qatım?..
Baş üstə!

## KÖPƏK OĞLU

Yel kimi hər yana meyl edib əsən
Dəm-dəm xəyal, beyni toz köpək oğlu!
Ənlik-kirşan "sovremennıy madmazel",
Adı oğlan, özü qız köpək oğlu!

Əyri əllə qazan tutub qaz vuran,
Məclislərdə sazı atıb, caz vuran,
Dost evində qız, gəlinə göz vuran,
Oğraşsifət, arvatbaz köpək oğlu!

Ay Qaracan, əsib-coşma, qanan döy,
İstər danla, istər dalaş, istər söy,
Qırmızı üz, dişi seyrək, gözü göy,
Bəsdi, çəkil məndən vaz köpək oğlu!

## HƏYATIN ƏN QƏMLİ GUNU DƏ XOŞDU

Mənə nə beykefsən demə, a dostum,
Həyatın ən qəmli günü də xoşdu.
Şükür yaradanın nur dərgahına,
Həyatın ən qəmli günü də xoşdu.

Kiminin əzəldən qurulub taxtı,
Kiminin açılmır, bağlıdı baxtı,
Çalış boş keçirmə vədəni, vaxtı,
Həyatın ən qəmli günü də xoşdu.

Sonu bilinməyən ömür yolunda,
Kimi atla gedir, kimi piyada.
Qaracanam, günlər gördüm dünyada,
Həyatın ən qəmlı günü də xoşdu.

## YADIMA DÜŞDÜ

Keçmişə boylandım, doldu gözlərim,
Cavanlıq çağlarım yadıma düşdü.
Əyildim bir sınıq budağa doğru,
Çiçəkli bağlarım yadıma düşdü.

Bilmədim dünyada yol yoxuşadı,
Ümidim kəsikdi, arzum boşadı.
Yurd-yuva dərdindən qoşa-qoşadı,
Sinəmdə dağlarım yadıma düşdü.

Adım bir gözəlin yadına düşməz,
Ayıma, ilimə gəlib görüşməz.
Mənim taleyimdə bir də görünməz
Gülərim, ağlarım yadıma düşdü.

Bu ömrüm ötəndi, bu ömrüm itən,
Dost-tanış dərdidi bu ömrümə tən.
Gecəli, gündüzlü ömrümdən ötən
Şirin ağrılarım yadıma düşdü.

Olum amanlıdı, ölüm tufanlı,
Biri gümansızdı, biri gümanlı.
Yenə, ay Qaracan, başı dumanlı,
Çobanlı dağlarım yadıma düşdü.

## GƏLMİŞƏM

Bu xoş gündə tərif sənə yaraşır,
Hüzurunda söz deməyə gəlmişəm.
Bilirəm ki, doğmaların inciməz,
Var sinəmdə köz, deməyə gəlmişəm.

Yaş o yaşmı, nələr keçir ürəkdən,
Gəl incimə nə Tarından, fələkdən.
Vallah, səni qısqanaram küləkdən,
Dərmanımı yaz deməyə gəlmişəm.

Şahzadəsən, tacı-taxtın var olsun,
Can mülkündə tale sənə yar olsun,
Çox gecikdim, çox da mənə ar olsun,
Çox sözümü az deməyə gəlmişəm.

Gəldim alam ürəyimin dincini,
Böləm sənlə könlümün sevincini.
Qəlbim üstə mirvarini, incini
Sədəf kimi düz deməyə gəlmişəm.

İsmin pünhan, şehli çəmən çiçəyi,
Gözəllərin göyçəyisən, göyçəyi!
Qul Qaracan əsirgəməz heç nəyi,
Yol sinəmdi, gəz deməyə gəlmişəm.

# NOLAYDI BİR QIZIM OLAYDI MƏNIM

Allahdan bir arzum qaldı gözümdə,
Nolaydı bir qızım olaydı mənim!
Körpə quzum deyib əzizləyərdim,
Nolaydı bir qızım olaydı mənim!

Yadıma düşəndə ürəyim sızlar,
Dönüb cığır oldu dünənki izlər,
Bir də deyilməsin kəsikdi qızlar,
Nolaydı bir qızım olaydı mənim!

Hər eldə-obada hörmətim oldu,
Duyan ürəklərdə söhbətim oldu,
Tanrıdan cüt oğul züryətim oldu,
Nolaydı bir qızım olaydı mənim!

Bu yolun payızı, yazı varıymış,
Qismətimin çoxu, azı varıymış,
Taledən pozulmaz yazı varıymış,
Nolaydı bir qızım olaydı mənim!

Bir də görəcəksən qapını kəsdi,
Yetişdi ömrünün o payız fəsli,
Onda deyəcəksən, ana nəfəsli
Nolaydı bir qızım olaydı mənim!

Coşma, ay Qaracan, onu bil ki, sən
Yenə özü bilər o özü bilən!
Deyirəm, evimdə danışıb, gülən,
Nolaydı bir qızım olaydı mənim!

## TƏKƏLİ

*Doğma kəndimə*

Vəfalı oğluyam, canımda canı,
Görsəm də üzünü az Təkəlinin.
Şöhrəti dillərdə əzbər olubdu
Qəlbi təmiz, sözü düz Təkəlinin.

Gözəllik bəxş edib ana təbiət,
Yaradan əlləri çəkibdi sinət.
Qocası məğrurdu, cavanı comərd,
Durmuşuq yolunda biz Təkəlinin.

Çox olubdur igidlərin savaşı,
Burda qan selində axıb göz yaşı.
Koroğlu nəslidir - əyilməz başı,
Olsa da düşməni yüz Təkəlinin.

Vəsf eyləyim Həsən bəy kimi nəri,
Pozulmayan bir ordunun sərkəri.
O Hatəm səxalı, el hünərvəri,
Qoydu tarixində iz Təkəlinin.

Aşıq Mustafanın "Cəngi" nərəsi,
Alyarın titrədən gur zənguləsi,
Hümbətin qəlb açan, ecazkar səsi,
Ana laylasıdır saz Təkəlinin.

Səcdəgahdır seyid Həşim ocağı,
Məzlum bəndələrə yanan çırağı,
Məkkə, Mədinədən gəlir sorağı,
Gəlin, ziyarətinə siz Təkəlinin.

Babalar fərəhlə belə deyərdi,
Bu el yaranandan qonaqsevərdi,
Qaracan, yaratmaq böyük hünərdi,
Şəninə bir dastan yaz Təkəlinin.

*1978*

## BORÇALININ BABƏKƏR DAĞLARINA

Baxıram hüsnünə Babəkər dağı,
Yadıma əl çatmaz uzaqlar gəlir.
Növrəstə çağlarım, şux dövranlarım,
Gəzdiyim obalar, oymaqlar gəlir.

At belində "Boz yoxuş"dan aşanda,
Duman gəlib dolaylarda çaşanda,
Qaranlıq düşəndə, qurd ulaşanda,
Açdığım atəşlər, "Parax"lar gəlir.

"Əmir dərə", "Nəzik dərə" qoşadı,
"Qara qaya", "Ağ qaya" baş-başadı,
Çoban babam sizdə ömür yaşadı,
Ağ sürülər, güllü yaylaqlar gəlir.

Yaylağında köhlənləri yorduğum,
Sədasını küləklərdən sorduğum,
Dərgahında dəyələri qurduğum,
"Nəzik su"lar, "Korabulaq"lar gəlir.

Gözəl keçir dövranında hər fəsil,
Ağır ellər qonağındır ilbəil,
Motal pendir, yağ bulama, çil çəçil,
Süzmə qatıq, Kərə qaymaqlar gəlir.

Yurd yeridi "Eyvoğlu"nun dərəsi,
Həmşəriynən, Əhvər əmmin bərəsi,
Qaracanam, çoban İsa binəsi,
Köç Karvanlar, Atlı qonaqlar gəlir.

## CALAL BABA

*Borçalı mahalı, Kür üstü Kosalı kəndi,*
*Babaxanlı nəslinin ağsaqqalı,*
*100 yaşında dünyasını dəyişən Calal babama.*

Babaxan nəslinin dağ dayağıydın,
Nə tez xəyal oldun, ay Calal baba.
Sən getdin, Ay batdı, Gün də saraldı,
Çökdü dünyamıza qəm, məlal, Baba.

Hər igid olanan bürc qalası var,
Hər eşqi-sevdanın bir butası var.
Yurdda qalanların öz dünyası var,
Daşıyır yükünü tək Bilal, Baba.

Ömrün gah günəşli, gah da dumanlı,
Həm yağı düşmənli, həm qohumcanlı.
Gah dərya kamallı, gah dəliqanlı,
Ağır El içində ağsaqqal Baba.

Nə kimsə ağlatdın, nə də ağladın,
Qeyrəti bərk tutub, arı saxladın,
Kişi tək ömrünü yüzə haqladın,
Yaratdın əbədi cəh-cəlal baba.

Dayazda durmadın getdin dərinə,
Nələr gəldi sənin səcdə- sərinə,
Yurdunda şam tutan nəvələrinə,
Eylədin əməyni sən halal baba.

Ocağın sönməyib közün var sənin,
Cismi-canın gedib, izin var sənin,
Qaracanam, məndə sözün var sənin,
Cəkərəm hər yanda bir misal baba.



## ANA

*Anam Töhvənin məzarı başında*

Nə tez xəyal oldu, nağıla döndü
O aslan ürəkli ömrün, ay ana?!
Övlad qəhərindən, yurd həsrətindən
Möhnətə dözmədi səbrin, ay ana!

Yarandın səadət gətirmək üçün,
Yoxsa da ömrünü itirmək üçün?
Səni mənzilinə yetirmək üçün
Yollara çevrildi qəhrin, ay ana.

Qaracan tufana düşdü könlündə,
Sən nura qovuşdun qar ələnəndə.
Hər yaz Babəkərdə el dincələndə,
Gülə bürünəcək qəbrin, ay ana.

## MƏNİM

Fələyin hökmüdür vermiş əzəldən,
Heç kəsilmir ahım-amanım mənim.
Nə lazım incimək fani dünyadan,
Görünür beləymiş zamanım mənim.

Min qeyli-qal ilə keçir dövranım,
Beləymiş əzəldən dövrü-zamanım,
Tutmayır şikarı oxum-kamanım,
Heç yatmır əlimə kamanım mənim

Qaracanam, güzgü daşlara çaxdım,
Çevrilib düzəlmir, yanadır taxtım.
Müddətdi açılmır, bağlıdı baxtım,
Bir Allaha qalıb gümanım mənini.

## EYLƏMİŞƏM

*(zarafatyana)*

Gəl incimə sözlərimdən, ay qağa,
Zarafat edirəm, ərk eyləmişəm.
"Xatasız qul olmaz, kərəmsiz ağa",
Bəlkə mən tərsinə dərk eyləmişəm.

Ürəymin üstədi bil sənin yerin,
Mənim kədərimdi, sənin kədərin,
Həmişə sağlığını istərəm sənin,
Baxma ki, şərabı tərk eyləmişəm.

Qaracanam, xəyaldayam, uymuşam,
Kef əhliyəm, içməsəm də meyxoşam.
Get qabağa, arxanda mərd durmuşam,
Bəndi, bərələri bərk eyləmişəm.

## OLMUŞAM

Aybeyinsaf, bir bax mənim halıma,
Ayaqlar altında həsir olmuşam.
Qollarımda qandal, boynumda zəncir,
Bir qara qulunam, əsir olmuşam.

İçində zəhərlə dolu cəmim var,
Tufanda çağlayan dalğın qəmim var,
Nə atam, nə anam, nə də əmim var,
Bir səqir yetiməm, yesir olmuşam.

Eşqinin oduna odlanan canam,
Şərik olub dərdlərini qucanam,
Günahından keçən qul Qaracanam,
Niyə indi mən müqəssir olmuşam?

## MÜBARƏK

*Şəyirdim Şəhlaya*

Ay Vətən balası, ay ellər qızı,
Sinəndə dil açan sazın mübarək!
Cavan ömrün bulud kimi çağlasın,
Baharın mübarək, yazın mübarək!

Arzun dastanlara, şerə qarışsın,
Cavanlığın xoş gününlə barışsın.
Bəxtin gülsün, nur ocağın alışsın,
Xoş kəlamın, şirin sözün mübarək!

Qaracanın bağçasında barısan,
Günəşdən nurlusan, aydan arısan.
Arzum budur istəyincə yarı sən,
Qədəmin mübarək, izin mübarək!

## BORÇALI AŞIQ ƏMRAHA

Dədəmiz Qorqudun yadigarısan,
Var olsun barmaqlar, çal, Əmrah dayı!
Sənət dünyasının qibləgahısan,
Sizə səcdə qılır el, Əmrah dayı!

Dərya baba, barmaqların sirlidi,
On dörd pərdə on bir simin sehridi
Ahəngindən atəş alıb əridi,
Qəlbimin başından xal, Əmrah dayı.

Sazın, sözün neçə dərdin dərmanı,
Qaytar yerinə qoy alınan canı.
Sənət meydanında qul Qaracanı,
Ustad qollarına al, Əmrah dayı!

## DOSTUM

Sal qayadı, bürc qaladı qeyrətim,
Yenilməzdi, alınmazdı, a dostum!
Saf ürəyim, məhəbbətim, ülfətim
Nazilməzdi, üzülməzdi, a dostum!

Haqq yolunda qədəm basır ayağım,
Haqdan yanır bəxt evində çırağım,
Mənim dar günümdə arxa, dayağım
Göydə gözəgörünməzdi, a dostum!

Qaracanam, kəlmə gələr dilimdən,
Çətin verəm ixtiyarı əlimdən,
Yaratdığım tariximdən, ilimdən
Pozulmazdı, silinməzdi, a dostum!

## BİLMƏDİM

Düşdüm bir ovçunun ov kəməndinə,
Bağladı qolumu, qaça bilmədim.
Tutub qandalladı əl-ayağımı,
Kəməndi boynumdan aça bilmədim.

Heyif mətləbimə çatmadı əlim,
Tutuldu taqətim, büküldü belim.
Elə bil qəfildən lal oldu dilim,
Söyləyib dərdimi aça bilmədim

Qaracanam, məndə qalmadı dözüm,
Olmadı köməyim, ötmədi sözüm.
Əzəldən görmədi, kor oldu gözüm,
Yaxşını, yamanı seçə bilmədim.

# 84 YAŞINDA DÜNYASINI DƏYİŞƏN ANAM TÖHVƏ MƏHƏMMƏDRZA QIZINA

Baxıram yurduna, ocağına mən,
Daha o çıraqlar yanmır, ay ana.
Nə bir gələnin var, nə də gedənin,
Daha heç bir kimsə anmır, ay ana.

Üstündə həsiri hələ də durur,
Tutun altındadır atamın taxtı.
Hanı o əzəmət, o böyük qürur,
Görəndə qəlbimə bir şimşək axdı

Atamın köhləni kişnəmir daha,
Hanı bişirdiyin çörəyin sacı.
Cavab verəcəkmi o bir Allaha,
Sənin günlərini eyləyən acı.

Gözlərimlə gördüm yaralarını,
Ağlayan gözlərin yaşın içində.
Sənin əməyini itirənlərin,
Qalıb ömrü-günü yaşın içində.

Artıq qovuşmusan əbədiyyətə,
Ay ana, yerində rahat yat, rahat.
Oxuram Quranı ruhuna hər an,
Salıram yadıma hər gün, hər saat.

## GÖRÜNÜR

Bir an seyrə çıxdım doğma vətəni,
Necə uzaq-uzaq yollar görünür.
Dağların qartallı zirvələrindən
Çağlayıb hayqıran sellər görünür.

Deyirəm, o ala gözlüm hardadı,
Söhbətim hardadı, sözüm hardadı.
Mənsiz dil açmayan sazım hardadı,
Ağ sədəf üstündə tellər görünür.

Dönməz gəncliyimdən gedən günlərim,
Məni qürbət elə atan günlərim,
Ay Qaracan, demə ötən günlərim
Qarşıda aylarla, illər görünür.

*1967, hərbidə*

## NƏSİHƏTNAMƏ

*Həyat yoldaşım Ballı xanıma.*

Gözü tox, qəlbi nur ömür yoldaşım,
Atılsın daş-qaşlar ayaqlarına.
Tale varlığına bir ziynət verib,
Ağıldan libas tik uşaqlarına.

Bədəsillər bəd əməldən bay olar,
Əsl bəndə hey ucalar, boy alar.
Nəyə lazım yersiz, yönsüz boyalar,
Qüdrətdən rəng gəlib yanaqlarına.

Qaracan eşqinlə bağlayıb çətir,
Zülmətə günəşli bir səhər gətir,
Sən mənim ruhuma verdiyin ətir
Bal kimi süzülsün dodaqlarına.

# YANDI

*Mərhum qaynatam Musa Nəbi oğlunun*
*faciəli ölümünə*

Şimşək çaxdı, tufan qopdu qəfildən,
Daşların alışdı, qayan da yandı.
Bir duman oynadı başının üstə,
Yurdun haray saldı, yuvan da yandı.

Dağların özünə çəkibsən dağı,
Bülbüllər dolaşmır sən gəzən bağı.
Bir dua oxudun ölüm qabağı,
Od aldı, ağzında duan da yandı.

Ayrılıq atını çapır hər yana,
Dövranmı dəyişdi, yoxsa zamana,
Dost-tanış, el-oba olub parvana,
Ağrını, acını duyan da yandı.

Səkinə yarın çətin susa, dincələ,
O sənli günləri düşərmi ələ,
Sənsiz balaların of deyib, elə
Ata yoxluğunu duyanda yandı.

Bu necə itgidir, qəm mələr üstə,
Dərdə baş qoyanın dərd gələr üstə.
Qaracan köklənib pərdələr üstə,
O yanda ah çəkib, bu yanda yandı.

*18.10.1984*

## OĞLANLARIMA NƏSİHƏT

Atalardan qalma sözdü; - deyirlər,
"Polad sınar, amma əyilməz" oğul.
Ayıqlıq insanın şərafətidir,
Bihuş yatan bəndə ayılmaz, oğul.

Arxasız bəndənin arxasında dur,
Gətirər şanına əzəmət, qürur.
Vuranda düşməni çörəyinlə vur,
İnsan dəyənəklə döyülməz oğul.

Haram bir mətahın alanı olmaz,
Halal var- dövlətin talanı olmaz,
Bir az yanlış olar, yalanı olmaz,
Nahaqdan böhtanlar deyilməz oğul.

Çalışın qoyasız daş üstə daşı,
Nütfü pak olanın əyilməz başı,
Çörəyə, namusa, vicdana qarşı,
Edilən günahlar yuyulmaz oğul.

İnsanın borcudur insana hörmət,
Haqqa səcdə qılıb, ibadət etmək,
Tüstü ucalırsa, ocaq var demək,
Yalandan şayələr yayılmaz oğul.

Əgər bir xəyanət yoxsa qıraqdan,
Yetişməmiş meyvə düşməz budaqdan,
Günahsız bir bəndə heç vaxt nahaqdan,
Nə danlanmaz, nə də söyülməz, oğul.

Vaxt olub ki, ərşə qanadlanmışam,
Vaxt olub ki, ağır yollar getmişəm,
Qaracanam çox imtahan etmişəm,
Müxənnət çörəyi yeyilməz oğul.

## YERİNDƏ

*24 yaşlı şəyirdim Şəhla Bəşirovanın*
*faciəli vəfatına*

Zalım fələk, görəcəyim varıymış,
Günəş gəzdim, bulud gördüm yerində.
Aləm başdan-başa sehrikar imiş,
Söz oxudum, sükut gördüm yerində.

Dua qıldım, boyuna boy dilədim,
Kaş itməsin bu haqqı-say, dilədim.
İşıqlı bəxtinə bir pay dilədim,
Köçüb getdi, boş yurd gördüm yerində.

Qaracanam, ümidlərim heç oldu,
Harayına çatammadım, gec oldu.
Dodağının təbəssümü necoldu,
Qəm cilalı yaqut gördüm yerində.

*10.07.1996*

## GƏRƏK

*Hazırlıqsız toy eyləyən eloğlum,*
*Toyun tədarükü qabaqdan gərək.*
*Toya doy deyibdi ata-babalar,*
*Yemək qurtarmasın qabaqdan gərək.*

***Aşıq Mustafa***

Qafiyəni dəyişmirəm, ay ustad,
Yaranmışın qisməti haqdan gərək.
"Könül yapan, Kəbə yapar" deyiblər,
Ürək qırmayasan nahaqdan gərək.

Vaxtında dərdinin tap çarasını,
Südə soyumamış, tök çalasını.
Çıxanda bəyənmir öz libasını,
Tısbağa çıxmasın çanaqdam gərək.

Gülə bülbül qonar, sünbülə sərçə,
Fərə naz eyləsə, banlayar beçə.
Gözəlin əndamı üzükdən keçə,
İgidin libası yaraqdan gərək.

Ad eldən tanınar, nəsil də kökdən,
Qoy üzdən olmasın, olsun ürəkdən.
Atalar deyib ki, "külü küllükdən",
Odu götürəsən ocaqdan gərək.

Qurulu Xanəyə ziynətdi gəvə,
Mal, qoyun bir yana, dövlətdi dəvə.
Övlad öz yerində, şirindi nəvə,
Yerə qoymayasan qucaqdan gərək.

Düşsə də qapına namərd izləri,
Əymə qamətini, bükmə dizləri,
Ayrılıq gətirər, öpmə gözləri,
Öpəsən dodaqdan, yanaqdan gərək.

Acılıq zəhərdə, şirinlik balda,
Yaddaşlıq ağılda, nişana xalda.
Gözəllik camalda, mərfət kamalda,
Səxavət cibində qalaxdan gərək.

Qaracan, kədər yox, sevincə bürün,
Elin şənliyidir bu toy, bu düyün.
Uca zirvələr tək ucalmaq üçün
Keçəsən ən çətin sınaqdan gərək.

## QAĞA

*Dostum Əhmədxanın 65 yaşına*

Altımış beş yaşın mübarək olsun,
Yetəsən yüz belə illərə, qağa.
Hələ nə dövranın, nə zamanındı
Sığal çək ağaran tellərə, qağa.

Dağ oğlusan, dağlar səni gözləyir,
Bahar gəlib, bağlar səni gözləyir.
Cavan, gənçlik çağlar, səni gözləyir
Qayıt o keçdiyin yollara, qağa.

Çox oğullar qatlayıbsan qolunda,
Qayıtmadın, mərd dayandın yolunda.
Nəvələr dolanır sağı-solunda,
Tumar ver o qönçə güllərə, qağa.

Arzular var, çox cavansan hələ sən,
Çəmənlərdən tər bənövşə dərəsən,
Nəvə gördün, nəticələr görəsən,
Əllərin yetişsin əllərə, qağa.

Nəsillərə miras qalsın sözlərim,
Qürbətdəyəm, eldə qalıb izlərim.
Qaracanam yollardadı gözlərim,
Həsrətəm obaya, ellərə, qağa.

*10.01.2011*

## QAYTAR

*İşğal olunmuş torpaqlarımızın*
*qaytarılmasına.*

Heç bilmirəm nə etmişik Fələyə,
Düçar olduq yenə fitnə kələyə.
Hey düşürük belə qurğu, tələyə,
Görmürük yol düzdü, ya uçurumdu,
Qaytar o torpağı, qaytar o yurdu.

Öz əlimlə biləklərmi çatdılar,
Torpağımı torpaqlara qatdılar.
Yan pay verdilər, yan satdılar,
"Hayes" yedi, harınnadı, qudurdu,
Qaytar o torpağı, qaytar o yurdu.

Haram yeyib kölgələrdə yatanın,
Torpağını, millətini atanın.
Qeyrətini şöhrətinə satanın
Sağ ikən mənzili qaranlıq gordu,
Qaytar o torpağı, qaytar o yurdu.

Şer yazdıq: "Qardaş olub Hayastan",
Tərif dedik: "Qəlbi açıq Yerevan",
Bu minvalla başa çıxdı "Petrosyan",
Təpəmizin zirvəsində oturdu,
Qaytar o torpağı, qaytar o yurdu.

Nadan kotan əkdi başımda mənim,
Göynədi torpağım, daşım da mənim.
Bir gözəl əl açıb qarşımda mənim,
Ağladı, diz çökdü, boynunu burdu,
Qaytar o torpağı, qaytar o yurdu.

Qaracanam, başım üstə Allahım,
Ondan qeyri yoxdu arxam, pənahım.
Uca Tanrı, nədir mənim günahım?
Əməlim salehdi, niyyətim nurdu,
Qaytar o torpağı, qaytar o yurdu.

*2000*

## DEYİRLƏR
*(Turşməzə)*

Qonşumuzda bir mağaza müdri var,
Adına "Qazaxlı Lətif" deyirlər.
Dünən evdən mal almağa gedibdi,
Qayıtmayıb, yəqin itib deyirlər.

Səhər Xaşla "Paxmel"iyə* yüz vurub,
Sonra evdə qan qaraldıb, söz vurub.
Axşam üstü tamam-taraz düz durub,
Gedib taxtın altda yatıb deyirlər.

Tərpənməyib ciblərində qalağı,
Qapıdan qovubdu gələn qonağı.
Hələ üstəlik də arvad-uşağı
Döyüb, bir-birinə qatıb deyirlər.

Şükür olsun bir xətadan ötüşüb,
Bərk yıxılıb ayaqları sürüşüb,
Alverində bir az ziyana düşüb,
Baha alıb, ucuz satıb deyillər.

Dərdin alar insanların mərdinin,
Dərd gətirər, dərdinə namərdinin,
Qarabağda ermənlərin dördünün,
Qollarnı bir-birinə çatıb deyirlər.

Taxt dönəndə tərsə çevrilir dəfi,
Bəxt güləndə gül tək açılır kefi.
Gözəllər seçməkdə Molla Vaqifi,
İçməkdə Xəyyamı ötüb deyirlər.

Hatəm oğlu, qiyamətdi, qiyamət,
Əlində var, qanındadı mərhəmət,
Bir balaca eyləyibdi xəyanət,
Aşıq Qaracana atıb** deyirlər.
Böyük bir günaha batıb deyirlər.

***Paxmel**—*Axşamdan şərab içənin səhərki vəziyyətinə deyirlər.*
****Atıb** - alverdə aldadıb*

# TƏCNİSLƏR

## TƏCNİS

Gözəlim, gözümə nur çiləndi
Qamətin uzaqdan qaralan anda,
Soldu güllər, dərd qəmimdən ələndi
Əhval da qaralır qan qaralanda.

Sal qayalar qərinələr yaşıdı,
Çatma dağlar gözəllərin qaşıdı,
Seyrangahım Lələ dağın qaşıdı,
Köç etdim başını qar alan anda.

Var- dövlətlə çoxu ömür qazıdı,
Fərsiz övlad haqq payıdı, yazıdı.
Ay Qaracan bir zamanlar yaz idi,
Yazılan da mənəm, qaralanan da.

## DODAQDƏYMƏZ TƏCNİS

Dərdi-sər əlindən axdı qanlı yaş,
Deşildi yaralar, sızalandı gəl.
İllərlə intizar xəstə yatanın,
Kədər sinəsində sıralandı, gəl.

Tanrı yazan alınlarda sətirdı.
Eşq əhliyə əsən yellər ətirdi
Ayrılıq həsrəti təngə gətirdi,
Əl-əldən, can-candan aralandı gəl.

Alasan dərdini dərdin qananın.
Qalasan qeydinə yaradan canın.
Yad ellərdə yanan qul Qaracanın,
Qara saçlarına qar ələndi gəl.

## CIĞALI TƏCNİS

Gözəlim, gözümə nur çiləlәndi,
Qamətin uzaqdan qaralan anda,
Aşıq qaralan anda,
Qəmdən qaralananda,
Bu bazardan bir gedir
Ağla- qara alan da.
Soldu güllər, dərd qəmimdən ələndi,
Əhval da qaralır qan qaralanda.

Sal qayalar qərinələr yaşıdı,
Çatma dağlar gözəllərin qaşıdı,
Aşıq deyər qaşıdı,
Can alanım qaş idi,
Barmağına yaxşı bax,
Qəlbim üzük qaşıdı.
Seyrangahım Lələ dağın qaşıdı,
Köç etdim başını qar alan anda.

Var-dövlətlə çoxu ömür qazıdı,
Fərsiz övlad haqq payıdı, yazıdı.
Aşıq deyər yazıdı,
Könlüm, könül yazıdı.
Qəm atından enmirəm,
Bu nə qismət, yazıdı.
Ay Qaracan, bir zamanlar yaz idi,
Yazılan da mənəm, qaralanan da.

## DODAQDƏYMƏZ
## CIĞALI TƏCNİS

Dərdi-sər əlindən axdı qanlı yaş,
Deşildi yaralar, sızalandı gəl.
Aşıq sızalandı gəl,
Çaylar sızqalandı, gəl.
Eşqindən yanan aşiq,
Atəşsiz qalandı, gəl.
İllərlə intizar xəstə yatanın,
Kədər sinəsində sıralandı, gəl.

Tanrı yazan, alınlarda sətirdi.
Eşq əhliyə əsən yellər ətirdi.
Aşıq deyər ətirdi.
Seç, ya teldi, ya tirdi.
Əslini danan gəda,
Əsli-zatın itirdi.
Ayrılıq həsrəti təngə gətirdi,
Əl-əldən, can-candan aralandı, gəl.

Alasan dərdini dərdin qananın,
Qalasan qeydinə yaradan canın.
Aşıq yaradan canın,
Sağla yaradan canın,
Sədaqəti tez itər,
Sızqalı canhacanın.
Yad ellərdə yanan qul Qaracanın
Qara saçlarına qar ələndi, gəl.

# DİVANİLƏR

## FAYDASI NƏ

Bəxtin dönsə, arxasınca baxmağın faydası nə.
Cismi-cəsədi yandırıb, yaxmağın faydası nə.
İnsan olan könül yapar, ürək açar, əl tutar.
Verdiyini dönüb başa qaxmağın faydası nə.

Gəncliyində bir gözəlin gözlərində gülməsən.
Tellərini sığallayıb, dəstə-dəstə hörməsən,
Təzə açmış qönçə gülü vədəsində dərməsən,
Xəzan olub solan vaxtı qoxmağın faydası nə.

Məddahın adətidir baş əyib quyruq bulayar
Diz cöküb yalmanaraq hər yalaqdan yal yalayar.
Çörəyi diznin üstə yalquzay qurd tək ulayar,
Xalqa belə bir yaltağın, axmağın faydası nə?..

Haqqın yolu həqiqətdir, bu yolla getməliyik
Ağlayanla ağlamalı, gülənlə gülməliyik.
Alnımıza nə yazılıb, onu da görməliyik
Qəza olmamışdan qəlbi sıxmağın faydası nə.

Ay Qaracan, işlərini gəl, səliqə-səhim et.
Yaxşı-yaman nə görürsən, nəzər eylə, fəhim et.
Zülümkara zülüm eylə, məzlumlara rəhim et,
Tanrı qırmış bir könülü yıxmağın faydası nə.

## XUDA

Sidq ürəklə səcdə qıllam, birdi-birsən, ya Xuda!
Sən biləni bilən yoxdur, laməkansan, ya Xuda!
Varlıq sənin hökmündədir, yaradan sən, yıxan sən,
Yerin-göyün, ərşin-kürşün məhvərisən, ya Xuda!

Adın min bir, özün birsən, nursan ey Şahlar Şahı.
Bəndələrin din-imanı, cümlə ibadətgahı.
Sən böyüksən, bağışlarsan bağışlanmaz günahı.
Dünyamızın pasibanı, sahibisən, ya Xuda!

Qüdrətinlə könüllərdə ucaltdın çox saraylar.
Ziyarətnə üz sürtərəm həm həftələr, həm aylar.
Ətəyindən tutan əllər imdadına haraylar.
Dar ayaqda məzlumların köməyisən, ya Xuda!

Dərgahında dua qılır nurundan yarananlar,
Yönü Kəbeyi-qibləyə salınanı qılanlar.
Yolunda ehsan kəsilir saysız -sansız qurbanlar
Ən müqəddəs qibləgahın qibləsisən, ya Xuda!

Ey inamım, səcdəgahım, tanrı sənsən, bəndə mən.
Haqq, ədalət, hökm, divan, kərəm gördüm səndə mən.
Qaracanam, baş əyirəm dərgahına gündə mən,
Yaratdığın gəldi-gedər əbədisən, ya Xuda!

## AYTƏKİN

Asta-asta gəlib keçir ömür ildən, Aytəkin,
Gözəl çağlar xəyal olur, gedir əldən, Aytəkin.
Xoş arzular qanad açsın müjdələr sorağında,
Adın dillərdən düşməsin, sədan eldən, Aytəkin.

Nəsillərə miras qalan barmaqların izidi,
Damarlarda gur çağlayan ürəyinin nəbzidi,
Könül kimi bir qovuşan məhəbbətin rəmzidi,
İllər boyu ayrılarmı Araz Kürdən, Aytəkin.

Avazının laylasında yorğun ürək dincələr,
Tanrı sənin varlığına öz nurundan güc ələr,
Ay eşqilə sübhə qədər həsrətinlə gecələr,
Divanələr seyr edirlər göyü yerdən, Aytəkin.

Sinələrdə alovlanan saf eşqinin közüdür,
Hər bəndənin öz əksi var, el içində güzgüdür,
Bərəkallah, tən seçirsən, gözün sərraf gözüdür,
Yaxşıları yamanlardan, ləli dürdən, Aytəkin.

Ustadın gözəl veribdi dərsini, minnətdaram,
Halallıqla dərs almısan, səndə bulunmaz haram.
Qaracanam, get qabağa, nə qədər ki, mən varam,
Enməyəcən heç bir zaman zirvələrdən, Aytəkin!

# MÜXƏMMƏSLƏR

## CAVANLIQ

Yenə gəlib düşdü yada
Məndən uzağım cavanlıq.
Ömrümün bəzək libası,
Əlvan boyağım cavanlıq.
Ürəyimdən axıb gedən
Çeşmə bulağım cavanlıq.
Həm çiçəkli, həm boranlı
Aranım, dağım cavanlıq.
Taleyimə nur çiləyən
Ömür çırağım cavanlıq.

Maral gönündən qotazlı
Çarığım durur indi də,
Çox dizləri, dabanları
Qırmışam "Dirədöymə"də,
Bir gözəlin durna gözü
Gözümdə gülür hələ də.
Yadımdam çıxmayır əhdi-
Peyman eylədiyim vədə,
Dostlar daha yad oldular,
Artıbdı yağım, cavanlıq.

Gələcək arzum, ümidim,
Xatirəm keçmişə bağlı.
Keçir günlərim, aylarım
Gah mənasız, gah maraqlı.
Ağappaq qara bənzəyən
Saçlarım gənclik soraqlı.
Qaracanam, çox məclislər
Keçirmişəm təmtəraqlı,
Gəzir eldə, mahallarda
Sədam, sorağım, cavanlıq.

## VAR

*(Turşməzə)*

Bu gün bizim məclisimizdə,
A dostlar, kef var, nəşə var,
Qəm eyləməyin, boşaldın,
Nə qədər dolu şüşə var.
Sağ olsun, ev sahibinin
Əlində min cür peşə var.
Biri evdə, dördü çöldə,
Qapısında beş müşə var.
Darıxmayın, tələsməyin,
Heç düşməyin təşvişə, var.
Kabab daldan gələcəkdir,
Pörtləmədən çək döşə, var.

Nuş eyləyək badələri
Sağlığına Canəlinin.
Aşıb-daşan süfrəmizin,
Kefmizin gəlhagəlinin,
Çimnazın çil fərəsinin,
Kərim oğlunun kəlinin.
Müxtəsəri bu qapıdan
Gələn ağıllı, dəlinin.
Hava soyuq, od-ocaq bol,
Dərdi yoxdu Təkəlinin,
Böyründə “Cala” deyilən
Tükənməyən bir meşə var.

Keflərin köhlən çağında
Məclisdə olana bir bax.
Şimşək kimi parlayana,
Gül kimi solana bir bax.

Sevincindən ağlayana,
Kövrəlib gülənə bir bax
Masa üstə oynayana,
Uzanıb ölənə bir bax.
Qeyrətində, əməlində
Dəyişməz qalana bir bax.
Bu mətinlik, bu dönməzlik
Qaracanda həmişə var.

## BORÇALI

Söhbət açım Borçalıdan,
Dosta açıq yolları var.
Yaradan Haqdan yaradıb,
Hər fəsildə baharı var.
Öz əhdinə vəfalıdır,
Sədaqəti, ilqarı var.
Düşməninə diz qatlamaz,
Dostluqda etibarı var.
Gör neçə Qorqud misallı,
Kamil sənətkarları var.

x x x

Faxralıda şair Nəbi,
Sözüylə alıb cahanı.
Quşçuda şair İbrahim,
Mahalımın gövhərkanı.
Qaçağanda şair Əhməd,
Könüllərdə gör İsanı.
Xəstə Namaz, Dünyamalı
Oldu elin şöhrət-şanı.
Aşıq Oruc, Dollu Abuzər,
Onlara tay ustad hanı?
Xındı Məmməd,Əmrah kimi
Sənət xiridarları var.

x x x

Kosalı Sədi bəy Arif
Dəryalardan gövhər seçib,
Şair Sabir Qaracalar
Ləl hikmətli sirlər seçib.
Qoçulu Xoca Məhəmməd
Sözlərinnən gözəl seçib.
Şair Novruz el-obaya
Zər-zibalı ziynət biçib.
Dağlar qızı Səadət Buta
Haqqın şərbətini içib.
Sənətdə hünər yaradan
Əvəzsiz Kamandarı var.

x x x

Zəhmətinən ucaltdılar
Bu sənətdə birgə ömür.
Candarda aşıq Mirzə,
Güləverdə şair Teymur
Qaraçöpdə aşıq Musa,
Soğanlıqda Dəryayi-Nur.
Qarəzıda aşıq Alxan
Sənətdə haqqın nurudur,
Elimin şah sənətinin
Tarixi çox-çox uludur.
Aşıq hüseyn Saraclı tək
Ozanların sərdarı var.

x x x

İsmeyillə, Səməd ağa
Niqalaya çəkdi dağı,
İsabalı, Həsənbala
Sarılara oldu yağı.
Kosalı dəli Əhmədin
Dağlardan gəldi sorağı.
Təkəlidə Hasan bəyin
Ağır keçərdi yığnağı.
Qızılhacılı Nəriman

Bir mahalın yurd çırağı.
Rəşid ilə Cümşüd kimi
Cahan pəhlivanları var.

x x x

Gəlib burda məskən salıb,
Çoxları qərib ellərdən.
Dərəçiçəkdən Sadıq, Məmməd,
Şair Ağacan Şorəldən.
Osmanlıdan Axund Şaban,
Aşıq Məsim Bəyaziddən.
İrandan Aşıq Hüseyin,
Gənc aşıq Lətif Gəncədən.
Neçə aşiq bu torpağın
Od alıbdı sinəsindən.
Ağuşu nurlu anadır,
Hər gün açıq qolları var.

x x x

Dolandıqca qarış-qarış,
Könül doymur bu diyardan.
Ocağından od almışıq,
Yadigardı babalardan.
Ayrı düşmək haram işdi,
Pərvazlandıq yuvasından.
Qəlbi dolu, təbi coşğun
Oğullar çıxmasın yaddan.
Xoş arzular qanad açıb,
Müjdə alsın uzaqlardan.
Tərifindən ürək doysun,
Nəğmə yağsın dodaqlardan.
Saz-sözülə çıraq tutan
Qaracan tək qulları var.

## DƏDƏ MƏCLİSİNDƏ

Dədənin toy məclisində,
Bir baxın, kimlər görünür.
Bu gün arzularna çatan,
Gəlinlər, Bəylər görünür.
Məclisə təşrif buyuran,
Səyalı qədəmlər görünür.
Camalından nur tökülən
Mömin bəndələr görünür.
Hörmət görən, qiymət verən
Qədir bilənlər görünür.

Bu günkü toy məclisində
Əhli-hallar əyləşibdi.
Alnı açıq, qəlbi təmiz,
Pak insanlar əyləşibdi.
Ürəyi gözdən oxuyan,
Dərd qananlar əyləşibdi,
Kamalı dəryadan dərin,
Ağsaqqallar əyləşibdi.
Meydan açan, cəngi tutan,
İgid ərənlər görünür.

Bura mərdin məclisidir,
Aqillərin yığnağıdır.
Qonaqlar dalbadal gəlir,
Şənlənən mərd ocağıdır.
Hər tərəfə şölə saçan
Yanan haqqın çırağıdır.
Saqi dolanır məclisi,
Keflərin köhlən çağıdır.
Qaracanın sinəsində
Çağlayan tellər görünür.

## GƏDƏ MƏRƏKƏSİNDƏ

Gədənin mərəkəsində
Bir baxın kimlər görünür.
Şeşə qulaq, hüşü dalaq,
Kamalı kəmlər görünür.
Bir-birinə qaş-göz edən
Gizli him-cimlər görünür,
İşvə atan, qəmzə satan
Dodaq lalələr görünür.
Sinə gərən, hədyan deyən
Hədələr, himlər görünür.
Mərəkəni tərk eyləyib
Pünhan gedənlər görünür.

Mərəkədə görün kimlər,
Eyləyim bəyan əyləşib,
Vəzifələr gərdişində
Quyruq bulayan əyləşib,
Ara vuran, tələ quran,
Fitvə qalayan əyləşib.
Duz yoxdusa duzdaxlıqda,
Daşı yalayan əyləşib.
Sərxoş olub nərə çəkən,
Meydan sulayan əyləşib.
Harınnayıb el malını
Yeyib, talayan əyləşib.
Xarabalıq bəyquşu tək,
Yurdda ulayan əyləşib.
Qeybət edən, kəlmə güdən,
Xəbər culayan əyləşib.

Fərə kimi damlar üstə,
Gecə banlayan əyləşib.
Borca girən, nisyə vuran,
Sələmlər sayan əyləşib.
Pudra, pamada, vazilen,
Üzü parlayan əyləşib.
Nə bir qanan, nə qandıran,
Nə də anlayan əyləşib.
Ay Qaracan, nəzər eylə,
Haqqın sərraf bəndəsisən,
Bu mərəkə yığnağının
Sonunda nələr görünür?...

## ÇOBAN İSA HAQQINDA

A dağlar balası, a dağlar oğlu,
Adın dağa, dağ adına bağlıdı.
Bəd zamanda mərd igidin dövranı
Yaradanın imdadına bağlıdı.

Qartal olub zirvələrdən enmədin,
Öz yolundan özgə yola dönmədin,
Bir ömürlük günəş olub sönmədin,
Köz-közünə, od-oduna bağlıdı.

Düzdə ceyran, döşdə kəli vurmusan,
Neçə yurdda neçə binə qurmusan,
Dünya səni, sən dünyanı yormusan,
Yurd çırağı mərd adına bağlıdı.

Külək olub hər tərəfə əsmədin,
Dost evindən ayağını kəsmədin,
Ətəyindən tutan əli kəsmədin,
Mərhəmətin inadına bağlıdı.

Bir sevdadan közə döndü ürəyin,
Alovlandı eşqin, arzu-diləyin,
Ömrün-günün, məhəbbətin, gərəyin
Töhfə kimi qanadına bağlıdı.

Səndən aldım adı, sanı, hörməti,
Çəkdim el qayğısı, vətən həsrəti,
Qaracanın sazı, sözü, söhbəti
Sənin kimi ustadına bağlıdı.

Deyərdin ki, dağ yarandım
Dönə-dönə, ay dağ Ata.
Başı buludlara çatan,
Bar-bəhərli budaq Ata.
Qəhər qəlbi, kədər könlü,
Duman başı bürüyübdü.
Axtarıram el-obanı,
Verən yoxdu soraq, Ata.

Yadımdan çıxmayır mənim
Keçən aylar, keçən illər,
“Ağ körpü”də, “Ağ qula”da
Başa gələn qeyli-qallar.
Qollar qırıb, kəllə yardın,
Dağıtdın neçə alaylar,
Nə yatıbsan, qalx ayağa,
Bir də meydan quraq, Ata.

Yarananda oldu sənə
Duman yorğan, çəmən döşək.
Qayalarda məskən saldın,
Axdı bulud, çaxdı şimşək.
Keçən karvan deyərdi ki,
Bu binədə qonaq düşək,
Düşmən gözə qara bulud,
Dost gözünə çıraq Ata.

Deyərdin ki, igid olan
Heç ayrılmaz öz elindən.
Dövləti olan kimsənin
Səxavət gərək əlindən.
Qartal kimi dolanardın,
Aşardın dağlar belindən.
Həyatı bir dastan oldu,
Ömrü, günü varaq Ata.

“Burvollu”da meydan açdın,
Yaylağın oldu “Daş başı”.
Elə bil ki, dil bilirdi,
“Dəmir”, “Kömür”, “Alabaşı”.
Sərraf idin, tez seçərdin
Dostu, düşmanı, sirdaşı.
Hər sözü bir odlu güllə,
Çomağı bir yaraq Ata.

At oynadıb, qılınc çaldın,
Nərə çəkdin Koroğlu tək.
Meydan açdın, mərd dayandın,
Gəldin düşmənlə təkbətək.
Gah deyirdin məclis quraq,
Dostlar ilə şərab içək,
Yatma, oyan, o günləri
Bir də gedib görək, Ata.

Axan yerdən bir də axar,
Budur sözlərimin sonu.
Qaracanam, geyinmişəm
Polad libas, dəmir donu.
Dedin daha keçdi məndən,
Qoy nəvələr görsün onu.
Axır bizdən uzqlaşdın,
Oldun gözdən iraq, Ata.

Dünən dövranınla şənlik qurardım,
Bu gün göz yaşımı tökürəm, Baba.
İllərlə çalışıb, qurduğum evin
İndi daşlarını sökürəm, Baba.

Ellə vidalaşıb köçdüyün gündən,
Yaş tökür gözlərim, düşmüşəm əldən,
Bu evə-eşiyə nisgil köçəndən
Qərib durnalar tək ötürəm, Baba.

Olmadı nə dərdin, nə də bir qəmin,
Bir anda qərq oldu dəryada gəmin.
Tifilkən qoynunda yatardım sənin,
İndi həsrətinlə yatıram, Baba.

Yoxluğun bağrımın başını dəlir,
Sənsizlik dərdimi çəkənlər bilir,
Nə alnım açılır, nə üzüm gülür,
Dərdimi dərdlərə qatıram, Baba.

Qaracanam, atdım dünya mülkünü,
Daha geyinmişəm igid kürkünü.
Uğrumda çəkdiyin zəhmət yükünü
İndi yavaş-yavaş çəkirəm, Baba!

**(alın daşına)**

Əzəldən qartal yarandım,
Sevdim qarlı zirvələri.
Qeyrət ömrüm, dağlar andım,
Axtarmadım kölgələri.

A dövranım, çırağa dön,
Dürlü-dürlü sorağa dön,
Ya bulağa, ya dağa dön,
Xoşbəxt görüm nəvələri.

Ümidimin qoşa xalı,
Ay Təkəli, ay Kosalı,
Yaşayar, çoban İsalı,
Tarixinin səhvələri.

**(dostu Ələkbər kişiyə)**

Ay ağsaqqal, kim olubdu
Sənin dostun, mənim Atam.
Bir nəğməli sim olubdu
Sənin dostun, mənim Atam.

Qərib oğlu Şəmi bildi,
Qərib çəkən qəmi bildi,
Bu dünyanı zəmi bildi
Sənin dostun, mənim Atam.

Çox yandırır nəsə məni,
Tez solubdu yasəməni.
Axır saldı yasa məni,
Sənin dostun, mənim Atam.

Cavanlığı dəli-dolu,
Dostlar oldu sağı-solu,
Doğru keçdi doğru yolu
Sənin dostun, mənim Atam.

Bir zamanlar çoban oldu,
Kövrək qəlbi ümman oldu,
Yapıncısı duman oldu,
Sənin dostun, mənim Atam.

Dağdan aşdı, düzdən keçdi,
Çox alovdan, közdən keçdi,
Söz anladı, sözdən keçdi
Sənin dostun, mənim Atam.

Min yol yola çıxdı azı,
Gözlərimə yığdı yazı,
Sinəm üstə sıxdı sazı
Sənin dostun, mənim Atam.

Dərələrdə selə döndü,
Yamaclarda külə döndü,
Bir oxuyan dilə döndü
Sənin dostun, mənim Atam.

Dağda gəzdi, düzdə qaldı,
Saz yerinə ürək çaldı,
At oynatdı, nəmər aldı
Sənin dostun, mənim Atam.

Nə qalmısan intizarda,
Bu həsrətin dindi harda?
De hardadır, indi harda
Sənin dostun, mənim Atam?

Dədə Ələkbər, çəkdin adı,
Xatırladın dostu, yadı.
Qaracanın ilk ustadı
Sənin dostun, mənim Atam.

# DEYİŞMƏLƏR

## AŞIQ ABBAS TURABOVLA DEYIŞMƏ

**AŞIQ ABBAS**
Bir hörmətli salamım var
Sizin elə, ay Qaracan!
Yoxdu orda səndən başqa
Mənə qardaş, ay Qaracan!

**AŞIQ QARACAN**
Titrəməsin barmaqların,
Çaldıqca çal, aşıq Abbas.
Yaxşı dostun, yaxşı yadın
Könlünü al, aşıq Abbas.

**AŞIQ ABBAS**
Atama-anama salam,
Dosta, qardaşa qurbanam.
Heç kəsi mən tanımaram
Ola sənə tay, Qaracan!

**AŞIQ QARACAN**
Al sinənə telli sazı,
Qaldır göylərə avazı,
Əhdimizi, ilqarmızı
Unutma gəl, aşıq Abbas!

**AŞIQ ABBAS**
Əlyasa Əlyara deyir,
Qaracan heç görünməyir.
Aşıq Abbas da gözləyir,
Etsin sənə toy, Qaracan.

**AŞIQ QARACAN**
Min yaşasın Mamed xanı,
Mahmud, Əlyar, Əlyasanı,
Telli sazla Qaracanı
Yadına sal, aşıq Abbas!

*1972*

## ŞƏYİRDİM SAMİRƏ ELQIZI İLƏ İMTAHANSAYAĞI DEYİŞMƏ

**QARACAN**
Şəyird bala, sinəndəki o sazda
Doqquz nədi, Yeddi nədi, Üç nədi?
Yetmiş iki doğması var, binadan
Doğmaların, gəlmələrin neçədi?

**SAMİRƏ**
Əziz ustad, sinəmdəki bu sazda
Doqquz pərdə, Yeddi kökdü, Üç teldi.
Yetmiş iki doğma öz havasıdı,
Qalanları yandan-yana gəlmədi.

**QARACAN**
Kim idi yaratdı, ilkini çaldı?
Kimdən nəsillərə yadigar qaldı,
Kim idi ilk dəfə köksünə aldı,
Səsini ellərə bəyan eylədi?

**SAMİRƏ**
Adəmdi yaratdı, ilkini çaldı,
Qorquddan bizlərə yadigar qaldı.
Qurbani ilk dəfə köksünə aldı,
Səsini ellərə bəyan eylədi.

**QARACAN**
Sazın başı nədir, ayağı nədir?
Hansı kökün havası bir dənədir?
Hansı hava yeri, göyü titrədir,
Hansı hava başdan-başa nalədi?

**SAMİRƏ**
Baş “Divan”dı, ayaq “Müxəmməsi”dir,
“Bayat” kökün havası bir danədir,
O “Cəngi”dir, yeri, göyü titrədir,
“Zarıncı”dır, başdan-başa nalədi.

**QARACAN**
Doqquz pərdə nə nizamda düzülüb?
Nə xanədə, hansı adda yazılıb?
Hansı pərdələrdən köklər üzülüb,
Qalanları nə üstündə kökdədi?

**SAMİRƏ**
“Divan”, “Ruhan”, “Şah”, “Vəzir”di düzülüb,
“Bayatı”, “Zil”, “Açıq”-aşkar yazılıb,
“Xal” ilə “Gül” pərdə kökdən üzülüb,
Qalanları zil-bəm üstə kökdədi.

**QARACAN**
Sənətimlə öyünmüşəm əzəldən,
Bilirəm ki, sazım düşməz əlimdən,
Qaracanam, tərif yağır dilimdən,
Şəyirdlikdə Samirə bir dənədi.

**SAMİRƏ**
Sənət dünyan bir hikmətli cəlaldı,
Zilin, bəmin könüllərdən bar aldı,
Görən deyir: ya Kərəmdi, ya Zaldı,
Ustad, bu kəlmələr Samirədəndi.

**QARACAN**
Aşıq bala, sazın, sözün var olsun,
Tanrı sənə doğma olsun, yar olsun,
Sədan gəlsin, adın eldə car olsun,
Buyur qızım, bu tel saz sənindi.

## ŞAİR ƏVƏZ MAHMUD LƏLƏDAĞLA DEYİŞMƏ

*(Qifilbənd)*

**<u>ƏVƏZ</u>**
Ay Qaracan, meydanıma girmə sən,
Dilin topuq vurar, dizlərin əsər.
Ustadlar yanında ustad olsan da,
Sənət dünyasında mənəm şiri-nər.

**<u>QARACAN</u>**
Hədələmə məni, Əvəz Lələdağ,
Adam əvvəl yeyər, sonra gəyirər.
Açaram sinəmi, bağlı sandığın,
Bax gör xəzinəmdə nələr var, nələr.

**<u>ƏVƏZ</u>**
Bilirsənmi "Səkkizayaq" hardadı?
Neçə istək intizardı, tordadı?
De, kimlərin arzuları dardadı?
İşə düşdün, a dünyadan bixəbər.

**<u>QARACAN</u>**
"Səkkizayaq" Faxralı var, ordadı,
Milyon istək intizardı, tordadı,
Ustadların arzuları dardadı,
Uyuyurlar bu dünyadan bixəbər.

**<u>ƏVƏZ</u>**
O nədir ki, qalxdı daha enmədi,
O kim idi alovlandı, sönmədi.
O kim idi ilqarınadn dönmədi,
Bacarırsan, çıx aradan birtəhər.

**QARACAN**
O bayraqdı, qalxdı, daha enmədi,
O Kərəmdi, alovlandı, sönmədi,
O Məcnundu ilqarından dönmədi,
Hələ də bulaqda Leylini gözlər.

**ƏVƏZ**
O kim idi, şan-şöhrətə satıldı,
O kim idi, biləkləri çatıldı,
O kim idi, zülmətlərə atıldı,
O kim idi xilas etdi mələklər.

**QARACAN**
Ədil şahdı, şan-şöhrətə satıldı,
Şah İsmaylın biləkləri çatıldı,
O günahsız zülmətlərə atıldı,
Ancaq onu xilas etdi mələklər.

**ƏVƏZ**
O kim idi danladılar üzünü,
O kim idi bağladılar gözünü,
Eşitdilər haqdan gələn sözünü,
İki qəlbdə çiçək açdı diləklər.

**QARACAN**
O Novruzdu danladılar üzünü,
Haqq aşığının bağladılar gözünü,
Eşitdilər haqdan gələn sözünü,
İki qəlbdə çiçək açdı diləklər.

**ƏVƏZ**
Hərəsi bir rəngdir, toxum da, dən də
Niyə yaşıl olur bəs cücərəndə?
Bu sirri açmağa hünər var səndə?
Sazını bərk saxla, əlindən düşər.



**QARACAN**
Toxum düşər, nəm torpaqdan meylənər,
Su duranda yaşıl olar, iylənər.
Əsil oğul el içində bəylənər,
Sədası dillərdən-dillərə düşər.

**ƏVƏZ**
Dağ gördüm, daş gördüm, içim göynədi,
Dağlarda daşları yaradan nədi?
Bu kainat nədi, mavi göy nədi?
Hələ heç nə yoxdu səni basıb tər.

**QARACAN**
Haqsızlıqlar gördüm, içim göynədi,
Nəm torpağa günəş dəydi, səngnədi,
Kainat, mavi göy boş bir səhnədi,
Hər gələn tamaşa eyləyib gedər.

**ƏVƏZ**
O nədir, törədir min qada, min qan?
Onunla rahatlıq bilməyir cahan.
Qan, nəfəs yaşadır insanı, ya can?
Sənə söyləyirəm gör hardan xəbər.

**QARACAN**
Müharibə törədir min qada, min qan,
Onunla rahatlıq tapmayır cahan.
Qan, nəfəs, can ilə yaşayır insan,
Məhv olur, birisi olmasa əgər.

**ƏVƏZ**
Həyat başdan-başa bir möcüzədir,
Söylə ölüm nədir, bu həyat nədir?
İnsanda kamillik nəyə gərəkdir?
Hardadı, ay yazıq, səndə bu təpər?

**QARACAN**
Dünya başdan-başa bir möcüzədir,
Ölüm xüfunətdir, həyat havadır.
İnsanda kamillik buna görədir,
Qeyrət, qüdrət, mərfət varsa, var hünər.

**ƏVƏZ**
Bu bir həqiqətdir, ağlın da kəsər,
O nədir daima sinədə gəzər?
Batildən xəbərsiz zahiri bəzər,
Bunu da bilməsən, el sənə gülər.

**QARACAN**
Bu söz cavabını deyim müxtəsər,
Daş-qaş bir ziynətdir, sinədə gəzər.
Batildən xəbərsiz, zahiri bəzər,
İçində inləyər, çölündə gülər.

**ƏVƏZ**
O hansı ulduzdur nurlu yol açar,
Gecələr günəştək işıqlar saçar.
Səni kim eyləyib bu dərdə düçar?
Fikirləş gecəni səhərə qədər.

**QARACAN**
Müştər ulduzudur, nurlu yol açar,
Gecələr günəş tək işıqlar saçar.
Məni sən eylədin bu dərdə düçar,
Varsa bu sözlərdən, saxlama, göndər.

**ƏVƏZ**
Bəşərə qənimdir xaşxaş dənəsi,
De, hansı vücuddur, boşdur çənəsi?
Ağzı yumulmasa, kəsilməz səsi,
Dərd varmı, Qaracan, bu dərddən betər?

**QARACAN**
Kamil ustadlarla eylərəm bəsi,
Çərənçinin daim boşdur çənəsi.
Ağzına vurmasan kəsilməz səsi,
Dərd çoxdu, Lələdağ, çəkənlər bilər.

## AŞIQ-ŞAİR ALQAYIT XƏLİLOVLA DEYİŞMƏ

**ALQAYIT**
Səni tapammadım vədə yerində,
Qüssədən gözlərim doldu, Qaracan.
Boylu qələmçələr, salxım söyüdlər
Əl atıb saçımı yoldu, Qaracan.

**QARACAN**
Bir naşı səyyadın toruna düşdüm,
Kəməndi boynuma saldı, Alqayıt.
Aldı ixtiyarmı əldən əlbəəl,
Xəncəri ürəymə çaldı, Alqayıt.

**ALQAYIT**
Gözlərim intizar, taqətim bihal,
Gör neçə ürəyə xal düşübdü, xal.
Sədəfli sazını yüz də köklə, çal,
Qönçələr saraldı, soldu, Qaracan.

**QARACAN**
Xəzinə sərvətim, gövhər qiymətim,
Sığırçın ülfətim, qartal qüdrətim,
O mina qamətli, ana şəfqətim,
Məni mənliyimdən aldı Alqayıt.

**ALQAYIT**
Elə düşünmə ki, mən sizə yadam,
Qəminizə şərik, şad günə şadam.
Əhdinə ilqarsız, vəfasız adam
Bilirsən tikanlı koldu, Qaracan.

**QARACAN**
Bir deyil qiyməti bezlə ipəyin,
Hikmətli kəlamı olmaz nəpəyin.
Quyruğnu bulayıb, hürən köpəyin
Umduğu bir qaşıq yaldı, Alqayıt.

**ALQAYIT**
Dostsuz varlığıma dünya dar imiş,
Bənövşə, qantəpər, qönşə xar imiş.
Nə yaxşı, vəfalı dostlar var imiş,
Təsəllim, həmdəmim oldu Qaracan

**QARACAN**
Bərəkallah, ustad dərsi alıbsan,
Sinən üstə el körpüsün salıbsan,
Çoxlarına qılıncını çalıbsan,
Deyirlər Koroğlu, Zaldı Alqayıt.

**ALQAYIT**
Oldu məsgənimiz Gəncə, Sumqayıt,
Kimsə bizə deyir yurduna  qayıt.
Gözləri yollarda qalan Alqayıt
Dostuna zavallı quldu, Qaracan.

**QARACAN**
Qaracanam, geydim mərd libasını,
Mərdlər tutar ərənlərin yasını.
Hicran dünyasında qəm havasını
Dönə-dönə dolub çaldı Alqayıt.

## AŞIQ CƏMİL QAÇAĞANLI İLƏ DEYİŞMƏ

**CƏMİL QAÇAĞANLI**
Çoxlu sağ ol, ay Qaracan, hədiyyəni almışam.
Hər sətiri ümmandırsa, tərkibinə dalmışam.
Okun açdım yetmiş üçü, mənasına mayılam,
Həvəslənib telli sazda bir "Divani" çalmışam.

**QARACAN BORÇALI**
Aşıq dostum şerin aldım, oxuyub şadlanmışam.
Layiq bilib söz cavabın yazıb, pərvazlanmışam.
Ləli-dürdanələr seçdim dürlü kəlamlarından,
Asimanda şahpər açıb, şaxə qanadlanmışam.

**CƏMİL QAÇAĞANLI**
Sən bilirsən "Divani"dir hər telində çağladan.
"Hicranı"dır, "Kərəmi"dir qəm yerindən ağladan.
Yeddi uca dağ başını bir bəlendi bağladan,
O dağlarda qartalıydım, zirvələrdən qalmışam.

**QARACAN BORÇALI**
Öz yerində, məqamında duymusan hər kəlməni.
Qıfılbənddi, açan gərək hər bir bəndi, ilməni.
Zaman keçir, ovundurur həftə məni, il məni.
Ömrümün hal vədəsidir, yaşda tarazlanmışam.

**CƏMİL QAÇAĞANLI**
Cəmil deyər yaşa doldum, təbiidir, olandır.
Cavanlığım Hicristanda, qəriblikdə dolandı.
Yazda açan, payız vaxtı saralandı, solandı.
Allahımdan çox razıyam, salamat qocalmışam.

**QARACAN BORÇALI**
El içində ustad kimi var adınız, sanınız.
Yad etdiniz Qaracanı, varmış etibarınız.
Siz dahilər arasında kamil sənətkarsınız.
Təzə-təzə cərgənizdə mən də sıralanmışam.

## XUDAVERDİ QASIMOVLA DEYİŞMƏ

**XUDAVERDİ**
Ay Qaracan gəlişin, yaz
Bu məclisi gülləndirdi.
Sən sazını, sazın məni
İxtiyarsız dilləndirdi.

**QARACAN**
Şair dostum, kəlamların
Ürəyimi tellendirdi
Ana kimi laylasında,
Beşiyində yelləndirdi.

**XUDAVERDİ**
Obamızdan aralıyıq
Heç bilmirik haralıyıq
Bəxt əlindən qaralıyıq
Bu dərd məni selləndirdi

**QARACAN**
Xəyalımdan getmir qəti
Qürbat ellərin möhnəti
El dərdi, Vətən həsrəti
Saçlarımı çallandırdı

**XUDAVERDİ**
Sağ ol, eşitdim səsini
Qəlbin kövrək nəğməsini
Xudaverdi həvəsini
Dost sənətin şənləndirdi

**QARACAN**
Qaracan da dövran qurdu
Sənəti bəşərə nurdu
Mizrabı tellərə vurdu
Pərdələrdə xallandırdı

*1977-ci il*



# BAYATILAR

Aşıq deyər, bir gedir,
Bir dolanır, bir gedir,
Bəxtə bax, xoş gündə də
Qəm mənimlə birgədir.

Mən aşiq çoxdan gəlir,
İncəlik yoxdan gəlir,
Acdan xəta gözləmə,
Nə gəlsə toxdan gəlir.

Aşıq deyər yara-yar,
Yar bağrımı, yar, a yar!
Yar həsrəti çəkməyən
Yar qoynunda yarıyar.

Mən aşıq vaxta bir bax,
Çıxdığım taxta bir bax,
Özümdən qabaq gedir,
Məndəki baxta bir bax.

Aşıq deyər çağla gəl,
Yaralarmı sağla, gəl.
Deyirəm ki, nərə çək,
Demirəm ki, ağla, gəl.

Aşiqəm hər çağına,
Aranna, yaylağına.
Aç qolunu a dağlar,
Sığınım qucağına.

Başını alsa duman,
Olmağınan bədgüman.
Dərdinə əlac mənəm,
Axtarma həkim, loğman.



Ağ sürü Təkəlidir,
Dayağım tək Əlidir.
Məskənim qürbət ellər,
Yurd elim, Təkəlidir.

Əzizim, vüsalıdır
Nur  babam əsalıdır,
Nəslim, kököm, zatım,
Kür üstü Kosalıdır.

Aşıq deyər dəbimdir,
Coşub-daşan təbimdir,
Qaracan ismim mənim
“Borçalı” ləqəbimdir.

Yolda, yoldaş yaxşıdır
Ağıllı, baş yaxşıdır,
Şərəfsiz bir qardaşdan,
Bir qara daş yaxşıdır.

Baharın, yayın ola,
Tanrıdan payın ola,
Ya cibində qalağın,
Ya da ki, dayın ola.

Məclislər quranam mən,
Namərdlər yoranam mən.
Gah yanıb külə dönən,
Gah dağlar yaranam mən.

Sinəmdə coşan selim,
Sazımda on bir telim.
Yolunda ölməliyəm,
Ay zülüm çəkən elim.

Arzular çatsın kama,
Qoyma qəlbə qəm dama.
Mərdanə deməliyəm
Söz ki, gəldi məqama.

Şöhrətimin adısan,
Damağımın dadısan,
Məhəbbətimin közü,
Eşqimin qanadısan.

Mən aşiqəm yaz  ilə,
Al  könlümü yaz  ilə,
Nə qışım qışa döndü,
Nə yaz gördüm yaz ilə.

Aşıq havasına bax,
Yaylaq səfasına bax,
Bu sazımda anamın,
Həzin laylasına bax.

Sovqatını almışam,
Məktub yola salmışam,
Ay gözlari yol çəkən,
Gör harada qalmışam.

Camalı çiçək-çiçək,
Saçları ipək-ipək,
Analardı dünyada,
Bahar nəfəs, xoş dilək.

Əzizinəm, Qoy qala
Oda odun qoy, qala.
Sözün keçməyən yerdə
Ürəyində qoy qala.

# QOŞMALAR
# GƏRAYLILAR

## FAZİLƏ

Bəxt yüklü karvanım yolda qalıbdı
Dayanıb, getməyir köç ay Fazilə.
Boynuma dolanan dərd kəməndidi,
Atan biləkləri biç ay Fazilə.

* * *

Tanrı səni bizə yaraşıq verib,
Zülmətə saçılan nur işıq verib,
Mənim kələfimi dolaşıq verib,
Bağlı düyünlərimi aç ay Fazilə.

* * *

Sənin camalında nuru görmüşəm,
Qəlbini aydan da duru görmüşəm,
Məleykə görmüşəm, hürü görmüşəm
Cənnət bağçasında uç ay Fazilə.

* * *

Göylərə dayanıb min ahım mənim,
Sənin əlindədi sabahım mənim,
Bəlkə də olubdur günahım mənim,
Sirli günahımdan keç ay Fazilə.

* * *

Qaracanam, çən başımı alıbdı
Hər tərəfdən yollarım bağlanıbdı,
Ümidim Allahnan, sənə qalıbdı
Yoxdur özgə bir əlac ay Fazilə

## MƏRƏKƏDƏ

Bulaq dərgahında, çay qırağında
Məxvi mərəkədə olana bir-bax.
Yığıldı süfrəyə dostlar, tanışlar
Görənlər dedilər talana bir-bax.

* * *

Biri mənəm deyib döydü döşünə,
Masabəyi keçdi masa başına,
Bu zalım dövranın boş qərdişinə
Dəm tutub, klarnet çalana bir-bax.

* * *

Biri lağ eylədi hər yetən kəsə
Biri əlli vurub gəldi həvəsə
Biri fikirdədir, anlayır nəsə
Deyir bu qurğuya plana bir-bax.

* * *

Biri bəd danışdı, sözün bilmədi
Biri yasa batdı, deyib gülmədi
Biri təhqir oldu, susdu, dinmədi
Dedilər "peysər" nə salana bir-bax.

* * *

Biri Canavar tək möhkəm uladı,
Biri boyun əydi, quyruq buladı
Biri Koroğlu tək meydan suladı
Biri də bürüşüb, dalana bir-bax.

* * *

Süfrə yox, elə bil qaynar bulaqdı
Şərablar, kabablar sel kimi axdı
Hesabdar süfrəyə, cibinə baxdı
Yarpaq tək titrəyib, solana bir-bax.

* * *

Biri müdrik idi söhbət açmadı
Havalanıb hər laylaya uçmadı
Qaracan Borçalı niyə içmədi?
Sənətin qeydinə qalana bir-bax.

*1984*

## QORU MƏNİ

Qadir Allah kəramətsiz
Ağalardan qoru məni
Ahallarla yol gedərəm
Çağalardan qoru məni.

Yaltaqlanıb yal yalayan
Baş əyib, quyruq bulayan
Haram yeyib harınlayan
Buğalardan qoru məni.

Qaracanın var isbatı
Əsli, nəsli, kökü, zatı
Mayasında “vazqen” qatı
Dğalardan qoru məni.

## BU DÜNYADA

İnsan oğlu elə get ki,
İzin qalsın bu dünyada.
Elə getmə ki, arxanca
Tozun qalsın bu dünyada.

Hər yerdə görünmə;- şəkil...
Yerin döysə ordan əkil.
Astarın almamış çəkil
Üzün qalsın bu dünyada.

Yaşamaq istəsən rahat
Qaranı qəlbindən qır at
Ay Qaracan yazıb, yarat
Sözün qalsın bu dünyada.

## MAMOĞLU

*Borçalı mahalı, Kür üstü Kosalı kəndinin*
*müdrik ağsaqqalı, hörmət bəslədiyim*
*Eminov Mahal Mustafa oğluna*

Əhvalımı soruşursan,
Dolanıram, ay Mamoğlu.
El-obanı, dost-qohumu,
Hey anıram, ay Mamoğlu.

Arzular kama yetəndə
Könüllərdə gül bitəndə
Ellərdə şadlıq görəndə
Şadlanıram, ay Mamoğlu.

Bağlandım gümüş tellərə
Toy-busatlı dost ellərə
Gah da çənli zirvələrə
Atlanıram, ay Mamoğlu.

Yağlıcanın  yaylağına
Başkeçidin bulağına
Xəngəlin qonaqlığına
Oyanıram, ay Mamoğlu.

Sözlərim el arasında
Üzür sənət dəryasında
Arxasızın arxasında
Dayanıram, ay Mamoğlu.

Mərd meydanda yıxılanda
Namərd atın oynadanda
Yaltaq quyruq bulayanda
Odlanıram, ay Mamoğlu.

Anamın əsli Muxralı.
Atam Kür üstü Kosalı.
Özüm Qaracan Borçalı
Adlanıram,ay Mamoğlu.
*11.11.2014*



## ETİBARSIZ

*(Ustadını unudan şəyirdə)*

Sənət dostluğumuz bir yana dursun
Ustadın olmuşam ay etibarsız.
Mən səni vəfalı bir dost bilmişəm
Belə bilməmişəm ay etibarsız.

Sar qonmasın heç bülbülün gülünə
Dua etdim, sənət verdim əlinə
Nur əllərim sığal çəkib telinə
Qayğına qalmışam ay etibarsız.

Sevən ürəklərə nida düşəndə,
Dostluq arasına vida düşəndə,
Şirin xatirələr yada düşəndə,
Xəyala dalmışam ay etibarsız.

Zaman belə gəlib, neynəyəsən;-eh...
Qiymətsiz bir mala nə bazar, nə beh.
Bir əlimdə əsa, birində təsbeh
Daha qocalmışam ay etibarsız.

Qaracanam, gərək sözümdə duram,
Şeytanı öldürəm, tilsimi qıram.
Köhnə dostluğumuzu təzədən quram,
Qərara gəlmişəm ay etibarsız.

*10.01.2015*

## BABA YURDU

*Borçalı mahalı, Təkəli kəndi. Atam*
***Babaxanlı İsa Kərim oğlunun***
*yurdunu görəndə çox məyus oldum.*

Səni belə gördüm ürəyim yandı
De niyə məlulsan ay Baba yurdu
Zamanmı dəyişdi, dövranmı döndü
Qəmli xəyaldasan ay Baba yurdu.

Zülmət gecələrin şamı yanmayır
Pərvanələr başına dolanmayır,
Odunun, Oçağın alovlanmayır
Sönmüş bir sobasan ay Baba yurdu.

Aşıqların səsi daha gurlamır,
Köhlən şaha qalxmır,qılınc parlamır.
Yayın günəş açmır, qışın qarlamır,
Niyə tarimarsan ay baba yurdu.

Yurdda qalan yurd qədrini bilmədi
Gözü kordu, qulağı da şilmədi,
Cadukünlər cadu-fellər ilmədi
Bayqu məkanısan ay Baba yurdu.

Yaranandan bəxti viran yarandın,
Sahibin yox, əldən-ələ talandın,
Çeşmə idin gözlərindən bulandın
Bir gün durularsan ay baba yurdu.

Fəndli düşüklərin düşdün oynuna
Şahmar olub dolandılar boynuna
Gül balalar güllər əkər qoynuna
Ətir qoxuyarsan ay Baba yurdu.

Bu halına qalmayacam biganə
İnşallah şenlənər qurduğun xanə
Qaracanam, səni belə viranə
Qoymaram qalasan ay Baba yurdu.

*Yanvar 2015-ci il*

## GERİ DÖNMƏZ ÖTƏN GÜNLƏR

Zehnim yaman korlanıbdı
Gəl qınama məni qardaş
Kim nə deyir qananmıram
Huş gedib, qalmayıb yaddaş.

Aza, çoxa həd qoymazdım,
Kefimdən geri qalmazdım.
Hər havaya oynamazdım,
Getdi o gün, ötdü o yaş.

Yağılar ətrafım, yanım
Başımda çənim, dumanım,
Zirvələrdə qartal canım
Yan alırsan yavaş-yavaş.

Dağlar başından aşardım
Ağır ellər dolaşardım
Belə bir ömür yaşardım
O günlərim olaydı kaş.

Qocalığa dözüm yoxdu
Var dövlətdə gözüm yoxdu
Sirli söhbət-sözüm yoxdu
Nə sir qalıb, nə də sirdaş.

Qəhərdən qurmuşam binə,
Hər dərdə gərmişəm sinə,
Daha ömür deyir mənə,
Qocalırsan etmə təlaş.

Qaracan, köçür nəsillər,
Dolanır illər, fəsillər.
Geri dönməz ötən günlər,
İstər yalvar, istər savaş.

## TELLİ SAZ

Sədaqətli bir yoldaşsan,
Etibarlı dost-sirdaşsan
Hər zaman, hər yerdə başsan
Vəfalısan a telli saz.

Şəfəqisən nur sabahın,
Müjdəsisən ilk baharın,
Gül qoxulu arzuların
İlhamısan a telli saz.

Şövqüsən şeyda bülbülün
Ətirisən qızıl gülün,
Xəstə yatan bir könülün,
Şəfasısan a telli saz.

Ümüd durar bəxt üstündə
Ömür keçər vaxt üstündə
Əyləşibsən taxt üstündə
Vüqarlısan a telli saz.

Xudadan verilib payın
Əvəzsizsən, yoxdur tayın
Dağlardan atılan yayın,
Həllacısan a telli saz.

Yadısan üzə gülənin
Qulusan qədir bilənin
Qiblə, Məkkə, Mədinənin
Meracısan, a telli saz

Abbas, Şenlik, Qurbanının,
Ələsgərlə, şıx Alının,
Qul Qaracan Borcalının
Baş tacısan a telli saz.



## TALEYRANIM, TAMERLANIM

*(Nəvələrim)*

Babanız dilək diləyir
Bəxdinizə bəxt ələyir
Ömrünüzə nur çiləyir
Ay mənim şölə-çırağım
Taleyranım, Tamerlanım.

Ömrümün payızı, yazı
Qismətimin çoxu, azı
Həm günəşi, həm ayazı
Yaylağım, dağım, aranım
Taleyranım, Tamerlanım.

Arzular dolsun ürəyə
Tanrınız yetsin köməyə
Yön çevirmərəm qibləyə,
Sizsiz mənim səcdəgahım,
Taleyranım, Tamerlanım.

Xanənizi qoşa qurun
Hər an sərvaq, oyaq durun
Babanıza dayaq durun
Ay mənim arxa dayağım
Taleyranım, Tamerlanım.

## ATALAR DEYİR

“Atalar deyir ki, bütün günahı
Mərd özündən görər, namərd özgədən”
Yorğun düşər əyri yolun yolçusu
Heç yorulmaz öz yolunnan düz gedən.

Axsaq dana tab gətirməz naxırda
Ləl-cavahir saxlanılmaz paxirda
Yaxşı, yaman,əməllərin axırda
Haqq yanında keçəcəkdi süzgədən.

Vəfalı dost, dost bağından bar dərər,
Vəfasızlar dosta nifaq göndərər.
Gündə yüz qan tökər, min xəta verər
Çənələrə, çənə verib söz güdən.

Fərqi yoxdur ya dağ olsun, ya aran,
Qurda verməz düz sürünü otaran.
Özgə gözdə tiri-şalban axtaran,
Yaxşı baxsın öz gözünə güzgüdən.

Ay Qaracan, zülmətlərə yarat, dan
Atlanan bəndəni düşürmə atdan
Ocağını yandırasan palıddan
Köz yaranmaz çırpılardan, təzəhdən.

## ÜSTƏ

Məni anıb bizə gələn dostumun
İzini qoyaram izlərim üstə
Qeyrətli;- dostum yox, düşmənim olsun
Əlbətdə yeri var gözlərim üstə.

Xanəsinə xallı-xalça bəzərəm
Zənbur şanasından əsəl* süzərəm
Tərif edib inciləri düzərəm
Sinəmdən süzülən sözlərim üstə.

Ürəklər bir ola, tuta qol-qola
Gözlərinə sevinc məhəbbət dola.
İnsan qədir bilən, mehriban ola,
Nazını çəkərəm dizlərim üstə.

Harada bay olub, bit yeyən xəsis
Ev damında qurum, ocağında his.
Qapıma gələrsə xəbislə, həris
Onları yandırram közlərim üstə.

Qaracanam, dost qapsını açaram
Əllərindən badə alıb içərəm
Hər kim olsa günahından keçərəm
Əgər üz qayubsa üzlərim üstə.

___________

***Əsəl** - *bal*

## YALTAQ

Bir əlin göydədir, bir əlin yerdə,
Fələk saldı səni bulunmaz dərdə.
Çəkilib üzünə bir qara pərdə
Çalmalısan, örpəklisən, a yaltaq.

Daşdan yaranıbdı ürəyin sənin
Saman çöpündəndi dirəyin sənin
Dizinin üstədi çörəyin sənin
Tərsəfürsət  müxənnətsən a yaltaq.

Özün kimi yal yalayan yaltağa
Bir yol tapıb soxulursan qoltuğa
Axırda da çevrilirsən şıltağa
Zəmanənin təlxəyisən a  yaltaq.

Şan-şöhrət dalınca getməkdir peşən
Çənəni sazlayıb, ötməkdir peşən
Qəflət yuxusunda yatmaqdır peşən
Öz-özündən bixəbərsən a yaltaq.

Zaman səni bələyinə bələyib,
Gözünə tül, başına kül ələyib.
Hər alçağın qarşısında baş əyib,
Qatlanırsan, düzəlirsən a yaltaq.

“Xalqım-xalqım” deyib, saxta yanma gəl,
Quyruğunu qısıb çox yalmanma gəl,
Aləm görür, kimliyini danma gəl,
El gözündə  sən bəllisən a yaltaq.

Şeir yazdım şəxsiyyətinə yaraşan,
Qalar səndən nəsillərə bu nişan,
Qaracanın damarına yapışan,
Qanın soran kor zəlisən a yaltaq.

## FƏLƏK

Əzəl gündən,yaranandan, belədir
Günahgarı, himlə qandırır fələk.
Günahsızı çəkir məhşər ayağna
Günahgar odunda yandırır fələk.

Bəzən olur,  bəxtinə taxt göndərir,
Bəzən olur, taxtı tərsə döndərir.
Zaman gəlir ucalanı endirir,
Zaman gəlir dağa qaldırır fələk.

Adam var ki. Hər kəlməsi yaraqdır
Adam var ki, dərdi vərəq-vərəqdir.
Adam var ki, el gözündə çıraqdır,
Adam var ki, gözdən saldırır fələk.

Çahdan şadlanırsan, gahdan  küsürsən
Çahdan qəmlənirsən, gahdan - gülürsən.
Gah ixtiyar verir:- gah da görürsən,
İxtiyarı əldən aldırır fələk.

Kimi əlini açıb istəyir imdad,
Kimi haray çəkir eyləyir fəryad,
Kiminin qoluna verir güc-qanad,
Kiminin dizlərini sındırır fələk.

Yanar olsun hər bəndənin sobası
Qəbul olsun Borçalının duası.
Hər dövranın, zamananın havasın
Aşıq Qaracana çaldırır fələk.

# DÜNYA

Gözümü açandan, özmü biləndən
Düşmüşəm dillərdə qınağa dünya.
Təlaş içindəyəm yaranan gündən
Hey çəkirsən məni sınağa dünya.

Nə vermişdin, məndən ala bilmədin?
Kədər yaşın gözlərimdən silmədin.
Rəhim edib heç insafa gəlmədin
Yıxdın;- qaldırmadın ayağa dünya.

Bağımda barım yox, bağçamda gülüm,
Mənəmi yazıldı bu dərd, bu zülüm.
Xanəmdə şamım yox, sobamda külüm,
Həsrətəm ocağa, çırağa dünya.

Yaradansan,  uçuransan, tikənsən,
Ömür karvan, mənzil sənsən, məkan sən.
Vəfası yox, cəfası çox məkansan,
Biz qul yaranmışıq, sən ağa dünya.

Qandal asdın Qaracanın boynuna,
Hey düşürdüm şeytan, iblis oynuna.
Sığınmışıq bir ömürün  qoynuna,
Gəlmişik beş günlük qonaq a dünya.

*1978-ci il*

# RÜBAİLƏR

Məmur oldum, vəzifədə calışdım
Gördüyüm nə oldu, götürdüyüm nə.
Sənət dünyasının  sehrinə vardım
Qazancım bu oldu, itirdiyim nə…

* * *

Kim deyir Kamandar köçdü dünyadan
Elin sənətkarı ölməz a dostum.
Əbədi bir hikmət yaradanları
Tarix səhifəsindən, silməz, a dostum.

* * *

Çətindir aşığın sazı əlində
Şairin sözləri sinədə qalsın.
Sonu bilinməyən bu səhnə dünya
Kimə qalmış idi, sənə də qalsın.

* * *

Alı, Abbas, Qurban, Şenlik, Ələsgər
Ozan dünyamızın zirvələridir
Onlardan bizlərə qalan töhvələr
Sənət tarixmizin səhifələridir.

* * *

Çəkmə, çəkə bilənməzsən
Bərkdi fələyin yayı.
Zaman gələr himə çökər
Dövranının sarayı.
Çox da, az da qarzananın
Beş arşın ağdı payı.
Qalan ancaq ya rəhmətdi,
Ya lənətdi dünyada.

* * *

Ömür başa çatdı, zaman yetişdi
Sən də köç eylədin Həmşəri əmi.
Sənsiz keçinməzdi bircə an belə
Elin həm xeyiri, həm şəri əmi.

## QIRMIZI (SINIQ) KÖRPÜ

Sınıq körpü çox keçibsən
Əsirlərin sınağından.
Ayrı saldın Borçalını
Azərbaycan cinahından.
İgid olan ayrılarmı
Öz yurdundan, ocağından
Pay verilməz bir ömürdən
Bir də vətən torpağından
Nə qədər ki, yatdıq, bəsdir
Qalxaq qəflət yatağından
Ya qırılaq, ya qurtulaq.
Yağıların caynağından
Ancaq o vaxt çıxa billik
Nəsillərin qınağından.

* * *

Kələkbazın, hiyləgərin
Yoluna tor qurmalıyam.
Gözlərinə millər çəkib
Dizlərini qırmalıyam.

* * *

Dahilər sığılmaz heç təqdimata
Haqqın dərgahından verilər buta.
Sən də şükür eylə Qaracan ata,
İşin avand olar, iqbalın gülər.

* * *

Bir müqəvva ata-ana yurdunda
Qalsa, ona qara şəkil deyərlər.
Qafasının qülləsində  qaralan
Yanları qirxılmış kəkil deyərlər.
Yurd-yuvanın sahibinin ruhları
Bir gün bu kəmsərə əkil deyərlər.

Bağban olan zəhmət çəkər, bağ salar
Hər bağbanın bağçasında bar olmaz.
Hər insanın şəxsiyyəti bir olmur
Bir olsa da etibarı bir olmaz.

* * *

Yaxşıdır hər şeyin öz gözəlliyi
Doğru gözəlliyi, düz gözəlliyi
Ötərgi nemətdir üz gözəlliyi
Könül gözəlliyi qiyamət olur.

* * *

Elimizin adəti var a dostum
Layiqli qonağı dəvət edərlər.
Çağrılmamış, özü gəlmiş qonağa
Belə üzdəniraq hörmət edərlər.

* * *

Bəxt ulduzun yanar olsun,
Şahlıq quşun qonar olsun.
Dövranından kənar olsun,
Xəta, qeyli-qal, ay dayı.

## TƏKƏLİ NAHİYƏSİ

Kəndimizin keçmişdən miras qalan
Qoç heykəllər tarixcəsi var idi.
Püşgəh dərəsindən Güzdəhə tərəf
Qara ağac, Qurd təpəsi var idi.
Namaz bulağının üst tərəfində
Mal ferması, at tövləsi var idi.
Ala kolda, Xramın kənarında
Camış damı, kəl bərəsi var idi.
Həsən bəyin dəyirmanı, məscidi,
Mədrəsəsi, minarəsi var idi.
Artıq bunlar sökülüb, dağılıbdır.
Xatirələr Qatacan Borçalının
Az da olsa yaddaşında qalıbdır.

# HAQQIMDA DEYƏNLƏR

## ALQAYIT XƏLİLOV – Aşıq-şair

Sən aqil oğlansan, Aşıq Qaracan,
Üz olan astardan ehtiyatlı ol.
Bir yığım rüşvətxor, bir dəstə quldur,
Dayanan postlardan ehtiyatlı ol.

Tülküyə oylaxdı pələngsiz dərə,
Marala qorxudu qurulan bərə.
Ürəkdə bir cürə, dildə bir cürə,
Deyilən tostlardan ehtiyatlı ol.

Alqayıt, qəzadan bulandı çeşmən,
Aşıq qardaş, buna deyiləm peşman.
Qorxma, kürəyindən vurmaz mərd düşmən,
Naxələf dostlardan ehtiyatlı ol.

## TOFİQ MƏMMƏD – Şair-jurnalist

Sanaram Koroğlu girdi meydana,
Götürsə sazını ələ Qaracan.
Özü dil-dil ötən bülbülə dönər,
Gətirər könlümü dilə Qaracan.

Hər xalda təzə bir ömür yaşaram,
Bulaq tək qaynayıb, çay tək daşaram,
Dərələr adlaram, dağlar aşaram,
Bəmdən adlayanda zilə Qaracan.

Qəlbdən gələn sözə bəs deyilənməz,
Aşiq aşiqinə qəsd eyləyənməz,
Araq, çaxır bizi məst eyləyənməz,
Bəlkə saz gətirə hala, Qaracan.

Açdın könlümüzü, gül etdin bizi,
Ay üzlü üzlərə tül etdin bizi,
Yandırdın-yandırdın kül etdin bizi,
Saz niyə dönmədi külə, Qaracan.

Sirdaşam dostuna, yadam yadına,
Bir dastan bağlaram sazın adına.
Sazın alovuna, sazın oduna
Tofiq çox yanacaq hələ, Qaracan.

## XUDAVERDİ QASIMOV – Şair

Könlüm qəm yorğunu, aşıq Qaracan,
Çal mənə sazınla layla de, layla.
Ümidim, murazım bəlkə gül aça,
Dağınla, yazınla layla de, layla.

Ərişli-arxaclı xanamdır sazın,
Dünənə, sabaha inamdır sazın,
Elimdir, günümdür, anamdır sazın,
Bülbül avazınla layla de, layla.

Çal, dağlar görünsün yol çəkən gözə,
Qayıda bilmədim keşdiyim izə,
Borçalı gülünnən ulu Təbrizə,
Qəmli Arazınla layla de, layla.

Saz Ozan babamdı, Dədəm Qorquddu,
Kimlər yada saldı, kimlər unutdu.
İncə mətləbləri şəhərlər uddu,
Qolça qopuzunla layla de, layla.

Heyrətin heykəldi sazın adına,
Yandım, hikmət oldum sazın oduna.
Nə vaxt Xudaverdi düşsə yadına,
Ay dost, saf arzunla layla de, layla.

## ӘVӘZ LӘLӘDAĞ – Şair, publisist

Qəribdən başladın, Kərəmdən dedin,
Ağlımı başımdan aldın, Qaracan.
Sən aşıq Şəmşirin telli sazını
Yanıqlı-yanıqlı çaldın, Qaracan.

Sazın laylasından çətin ki, doyam,
Ustadım Ələsgər, özüm də buyam.
Elim əldən gedib, Zəngəzurluyam,
Dağları yadıma saldın, Qaracan.

Arada yaramın qaysağı qopdu,
İntizar yanğısı canıma hopdu,
İçimdə hay-haray, təlatüm qopdu,
Axırda könlümü aldın, Qaaracan.

Qürbətdə çürüdü didərgin canım,
Bu gündən sabaha yoxdur gümanım.
Vətənsiz damarda quruyub qanım,
Əvəzi odlara saldın Qaracan.

## SOLTANMӘHӘMMӘD – Şair

Ürəyim sevinir, ruhum dincəlir,
Mizrabın dəyəndə saza, Qaracan.
Sevdalı bülbüllər ilhama gəlir,
Sən nəğmə qoşanda yaza, Qaracan.

Çal, oxu, sevinsin azad könüllər,
Səsinə səs versin şeyda bülbüllər,
Nazlansın çiçəklər, nazlansın güllər,
Sənətin ruh versin bizə, Qaracan.

Sədəfli sazının hər zərif simi,
Dil açıb çağlayır şəlalə kimi.
Ruhuma od salır "hicran Kərəmi",
Döndərir qəlbimi közə, Qaracan.

Tovuz quşu kimi bəzənib sazın,
Səsində ruhu var Kürün, Arazın,
Nazlı Turac kimi şirin avazın
Yayılır dərəyə, düzə, Qaracan.

Sazı sarı aşıq kökləyib, çalıb,
Qurbani, Ələsgər köksünə alıb,
Ustad babalardan yadigar qalıb,
Onu sədəf-sədəf bəzə Qaracan.

Gözəl sənətinə var məhəbbətim,
Sonsuz ehtiramım, hədsiz hörmətim,
Soltanməhəmmədə şirin söhbətin
Həmişə təzədir, təzə, Qaracan.

**MƏCNUN GÖYÇƏLİ – Şair**

Pərdələr sehrinə ömür köklədin
Bu dünya duruldu sözündə sənin.
Neçə ocaq çatdın sənət yolunda,
Biləklər isindi közündə sənin.

"Zarıncı"n hönkürüb yandırdı, yaxdı
Çürşadmı selləndi, şimşəkmi çaxdı.?!
Bir qərib gözünün içinə baxdı,
Kərəm yas quranda üzündə sənin.

Könüldən süzülür səsinin balı,
Eşidib dünyanın dəyişir halı,
Tellərdə dil açdı Ələsgər, Alı,
Kamandarı gördüm özündə sənin.

İrfan məclisinə qanaddır adin,
Kamilsən dayaza mehr salmadın,
Şəyirdə, Ustada borclu qalmadın,
Neçə iz parlayır izində sənin

“Məmmədbağrı”n keçmişləri andıra
Qızlar yenə “Süsənbəri” çaldıra,
Yetmişin doxsana bayraq qaldıra,
Dövranın saz tuta yüzündə sənin

**AYDIN ƏFƏNDİ (Qazax)**
Sənət qədəmlərin mübarək olsun,
Qaracanım, qara xallı qardaşım.
İsti qanlı, şir ürəkli, şirin dil,
Nər balası, san-sanballı qardaşım.

**FİDAİL (Şəmkir)**
Ay Qaracan, nur çilənir dilindən,
Bir çıraqsan o Borçalı elindən,
Tel ağlayır sənin sirli əlindən,
Yandım, qardaş, oldum kül, qadan alım.

**ORUC ƏLİZADƏ (Faxralı)**
Ay Qaracan, səsin dağlar aşanda,
Dərya sinən çağlayanda, daşanda,
Saz sinəndə qaynayanda, coşanda
Dağda duman, düzdə ümman kəsilməz.

**HÜSEYN ARİF**
Yaxşı tanı Qaracanı
Onun kimi oğul hanı
Yeri gəlsə verər canı
Kişisən qeyrətin olsun.

**AYDIN ƏLİYEV (Qubadlı)**
Borçalı elinin açılan yazı,
Duyan ürəklərin söhbəti, sazı,
Aydının saf qəlbi, ömür pərvazı,
Döyünən ürəyi, halı Qaracan.

**MƏMMƏD NAMAZ (Tovuz)**
Sazın incə, səsim xoşdu,
Xəyalımız dağlar aşdı,
Məmməd Namaz yenə coşdu,
Ay Qaracan, ay Qaracan.

**QİYAS HƏMİD (Masallı)**
Ürəyin elə bağlıdı,
Eldən ilham al, Qaracan.
Nə qədər ki, barmaqların
Tel üstədi, çal, Qaracan.

**FƏXRİ MÜSLÜM (Gədəbəy)**
Bu bəm nəydi, bu zil nəydi,
Qəlbimdən qəm dənələndi.
Fəxri Müslüm bölənmədi
Odu külə, ay Qaracan.

**MUSA ƏLƏKBƏRLİ (Gədəbəy)**
İpək paltar geyə bilər,
Yar özünü öyə bilər,
Budağını əyə bilər,
Daha neylər qar ağaca,
Ay Qaracan, ay Qaracan.

**HADİ (İran)**
Bura şəhri Zəncandı,
İran Azərbaycandı.
Elmizə qonaq aşıq
Borçalı Qaracandı.

**ADİL ABDULLA-şair**
Hamıya bəllidir şöhrətin-şanın,
Tutmusan nəbzini sən hər zamanın.
Qeyrətli oğlusan Azərbaycanın,
Borçalı övladı Aşıq Qaracan.

## AŞIQ FƏRƏC MURADİ (İran)

İranda, Qafqazda gözəl adı var
Sazlı, sözlü bir ustaddı Qaracan.
Gələn qonağına ehtiramı var,
İnsanlıqda böyük addı Qaracan

Sərraflı, sirrili söhbət, sözü var.
Kitablarcan sorağı var, izi var.
Deməərəm ki, yad əllərdə gözü var.
Çövhərkanlı Kəramətdi Qaracan

Çox gəzmişəm Bakı, Şirvan, Gəncəni,
Sumqayıtda tapdım ləli-mərcanı,
Haqq saxlasın Vüqar, İlqar oğlanı,
Mən Fərəcə məlumatdı Qaracan.

## İBRAHİM (İran)

Vurğunuyam o sazının,
Bizim elə gəl Qaracan.
Dür tökülür şirin dildən,
Kəlmələrin bal Qaracan.

O tellərin qəsdi nədir?
Qərarımı kəsdi, nədir
Hər sözün bir xəzinədir ,
Cavahiri – ləl Qaracan

Asta-asta sazı dindir,
Dağı aşır düzə endir,
Dəryalardan da dərindir,
Səndəki kamal Qaracan.

# XƏNGƏL

**(Alqayıt Xəlilov)**

*Yanvar 1992-ci il*

**Sumqayıtda Qaracan Borçalının evində**

Qoy şeir yazım tanıdım,
Elə, mahala xəngəli.
Cavanlar yemir, yeməsin
Çəkin ahala xəngəli.
Dəyişmərəm brilyanta,
Yaşıla, ala xəngəli.
Sumqayıtda Ballı bacı
Gətirdi hala xəngəli.

Süfrəmizə Qaracanın
Telli sazı, udu gəldi.
Şəmkirin ağ şaftalısı,
Ağdamın xar tutu gəldi.
Ballı xanım hökm elədi,
Borçalı qurudu gəldi.
Elə bil ki, zalım qızı
Qatıbdı bala xəngəli.

Məcmilərə çəkiləndə,
Yoxa çıxdı çəngəl, bıçaq
Bu Peyğəmbər xörəyini,
Əllərimlə yedim ancaq.
Asılmışdı barmağımdan
Yarpaqları saçaq-saçaq.
Qaracan az qaldı, lələ
Əlimdən ala xəngəli.

Ləziz xörək bişirməkdə
Möcüzəymiş qadın əli.
Məlhəmdi, şəfqətdi inan
Gülər üzü, şirin dili.
Bax elə burdan başladı.
Xöşbəxtliyin ilk təməli
Neçə qayğısız qadınlar
Çəkdi zavala xəngəli

Alqayıtam bu nemətin,
Xərci böyük, zəhməti çox
Süfrəyə gələn zaman,
İnkar etməz hər gözü tox.
Tərifin deyib babalar,
Söz qoşmağın mənası yox.
Nə ola qızıl kitaba,
Aqillər sala xəngəli.

**ZƏLİMXAN YAQUB – Şair**

Axtarırdım Qaracanı,
O, bizə özü gəlmişdi.
Dodağında Ələsgərin,
Vurğunun sözü gəlmişdi.

El gücü var biləyində,
Ucalmaq var diləyində,
Oda dönmüş ürəyində,
Ocağın közü gəlmişdi.

Yaxşıya qaynayır qanı,
Yeri gəlsə verər canı,
Yada salıb Zəlimxanı,
Dostların gözü gəlmişdi.
*1971-ci il*

## SAZ ALVERİ ƏHVALATI

***Bu baməzə əhvalat 1972-ci ildə Bakı şəhərində aşıq Qaracan Borçalı, şair Zəlimxan Yaqub və şairin bibisi oğlu İman arasında oldu.***

Günlərin bir günü evə gələndə gördüm ki, sazım evdə yoxdu. Evdə mənə dedilər ki, sazı Zəlimxan apardı. Sabah gəldim ki, sazı gətirib. Köynəkdən çıxartdım, gördüm bir teli qırılıb və arasında bir parça kağız qoyulub. Kağızda aşağıdakı şeir yazılmışdır:

Səndən icazəsiz alıb sazının
Qəlbində bir incə teli qırmışam.
Elə bilirəm ki, cəllada dönüb,
Obanı dağıdıb eli qırmışam.

Döndərsə üzünü tufanlar sellər,
Qınasa aşiqi haqlıdı ellər.
Aşığın sağ əli tellərdi, tellər,
Əllərim qurusun əli qırmışam.

Xətasız qul olmaz, kərəmsiz ağa,
Çəkmə Zəlimxanı arana, dağa.
Bağbana deməmiş girmişəm bağa,
Bülbülü incidib, gülü qırmışam.

Şeiri oxuyub, möhkəm güldüm. Öz-özümə dedim: “Qırıbsan, əcəb eləyibsən... Bir tel qırılıb dünya dağılmayıb ki!... Buna bir dastan açmağın mənası nədir, axı?”

Bu əhvalatdan heç bir ay keçməmişdi, Zəlimxanın bibisi oğlu İman bizə gəldi. Dedi ki, “Dost, bilirsən nəyə gəlmişəm? Zəlimxan yaman kasıblayıb, ona görə sazı satmaq istəyir. Əgər mən ona desəm sazı mənə satsın, bibisi oğlu olduğuma görə mənə verməyəcək. Get, sazı öz adına al, sonra ver mənə. Deyərsən “İmana bağışladım.” Ataların “Gicin sözü gicin ağlına tez batar” misalı var. İmanın sözü ağlıma yaman batdı. Durdum Zəlimxanın yanına getdim. Nə gördüm: Yataqxananın mətbəxində kartof qızardır. Kartof qızartması onun sevimli yeməyi idi. Kartofu çox yaxşı qızarda bilirdi. Yeyəndə də ləzzətlə yeyirdi. Kartofu qızartdığı tava hələ də durur. kartof ucuz olduğuna görə kasıb yeməyi hesab olunurdu. Oturduq bir yerdə çörək yedik, sonra gəlişimin məramını açıqladım. Dedim: “Ay Zəlimxan, deyirlər sazı satırsan, almağa gəlmişəm.” Heç bir söz demədi. Ütələk yeməyi var idi, tez tələsik yeməyini yedi və bir stəkan çay içdi. Sonra soruşdu ki, saza nə qədər verirəm. Qiymətini soruşdum, dedi 80 manat. Dedim ki, 50 manat ancaq verərəm. Soruşdu ki, “bəs pulun var?” Dedim qalsın, “stipendiya”da verərəm. Qaşlarını çatdı və sazı götürüb bədahətən dedi:

Saz pula satılmaz ürək sərvətə,
Nəğdi də saysanız minə verərəm.
O mənə Allahdı mən ona bəndə,
Allahı alçaldıb, dinə verərəm.

Qaracan, meyl edib hər sözə axma,
Duyan ürəkləri yandırma, yaxma.
Söz danış, söz olsun, alverə baxma,
Havayı söhbətə çənə verərəm.

Cavan Zəlimxanam eşit səsimi,
Qırma nahaq yerə gəl həvəsimi.
Mən öz ürəyimi, öz nəfəsimi,
İrana, Turana, Çinə verməm.

Başa düşdüm ki, sazı mənə satmayacaq. Daha bir söz demədim. Kirimiş geri qayıtdım. Elə avtobusda bir cizmaqara elədim. İman da evdə məni gözləyirdi. Elə bilirdi ki, sazı gətirəcəm. Qapını açan kimi sazı soruşdu. Heç nə demədim. Gedib sazımı götürdüm və dilcavabı qandırdım ki, bu sevdadan əl götürsün:

Zəlimxana dedim sazı sat mənə,
Salladı başını, dinmədi, İman.
O, səksən istədi, mən əlli verdim,
Bir qəpik aşağı enmədi, İman.

Bircə sözdən inciyəndi, küsəndi,
Qəpik üstə yarpaq kimi əsəndi.
Boz sərçəyə fil qiyməti kəsəndi,
Dediyi sözündən dönmədi, İman.

Qaracan sözünün quludur, qulu.
Dedim nəğd deyil, nisyədir pulu,
Dedi yekoğlansan, olma yuxulu,
Coşdu dəniz kimi, senmədi, İman!

Sözümü tamam eylədim. İman ayağa qalxdı və dedi: Mənə deyən gərək, aya sən niyə aşıqla, şairlə alver edirsən, onlar da sənə zinqrov qoşurlar.

Mən şairin yanından abırlı çıxmışdım. İman mənim yanımdan suyu süzülə-süzülə getdi.

## ƏJDƏR OL – Şair-publisist

“Adamı yolda tanıyarlar” deyiblər. 1992-ci ilin yayında aşıq Qaracanla yol yoldaşı oldum. Qaracanın istiqanlığı, Mehriban yoldaşlığı göstərdi ki, o, sazla neçə illərdi havayı oturub-durmayıb.

Biz Saxa (Yakut) Respublikasına getmişdik. Saxalılar bizi 21 iyunda yayın gəlişini alqışlayan “Isıx” bayramına çağırmışdılar.

Şişirdib-eləmirəm. Qaracanın sazı bu bayramın bəzəyinə çevrildi. Bayram YUNESKO xəttilə keçirildiyinə görə orada dünyanın hər yerindən qonaqlar vardı. Yalan olmasın, olduğumuz şəhər və kəndlərin bayram şənliklərində ən çox sazı alqışladılar. Xüsusən Yakut şəhərinin mərkəzi stadionunda keçirilən yekun konsertində Qaracanı alqışlar altında təkrarən qaytarırdılar.

Saxadan Vətənə qayıdan zaman yolda (təyyarədə) Qaracan dedi, düzü mən Saxaya gələndə sazın belə qarşılanmağını ağlıma gətirmirdim. Əgər bu saz mənə atamın yadigarı olmasaydı Saxa mədəniyyət Nazirliyinə hədiyyə bağışlayardım. Düzdür bir neçə ölkələrdə səfərlərdə olmuşam. Amma ən böyük qarşılandığım Qazaxıstan respublikasının Alma-Ata şəhərində olub, indi də Saxa respublikasında oldu.

## İLHAM BAXIŞOĞLU – Şair

Gurşadmı gurladı, şimşəkmi çaxdı
Bu nə bəm naləsi, nə zildi qardaş.
Sənət zirvəsində qurduğun o taxt,
Ömür səhifələrnə yazıldı qardaş.

Şah sənətin Qaracan tək şahı var.
Zülmət gecələrin dan sabahı var.
Əsli naləsi var, Kərəm ahı var.
Vallah o barmaqlar qızıldı qardaş.

Bəşər övladı var, İlham adında,
Yaxşı, yaman saxlayacaq yadında,
Sazın alovunda, sözün odunda,
Baxışoğlu ömrü yüz ildi qardaş.

## ƏRƏB PƏRƏNLU (İran)

Azəri yurdunun hər guşəsinə,
Yayılıbdı, şah sənətin, Qaracan.
Qibləgahsan, səcdəgahsan, ocaqsan.
Kəsilməyir ziyarətin, Qaracan.

Adın düşmür aqillərin dilindən,
Sədan gəlir ozanların elindən.
İllər keçsə, nəsillərin qəlbindən,
Üzülməzdi ülviyyətin, Qaracan.

Əyləşibsən şah sənətin sərində,
Anlayırsan hər kəlməni yerində.
İnciləri axtarırsan dərində,
Şücayətin, kəramətin Qaracan.

Hər qalxan cocuğa gəlməsin asan
Sənət dünyasında bürcü qalasan.
Dahi ustadların sırasındasan,
Var qiymətin, dəyanətin, Qaracan.

**CEYHUNƏ CAHAN**

Ceyhunə Cahanam yaxınla, yadla
Mən fəxr eyləyirəm siz tək ustadla.
Sənət zirvəsinə bu böyük adla,
Qalxıb zaman-zaman ucalan ustad.

**AYSEL GÖYÇƏLI**

Tanrı zinət çəkib hüsnünə sənin,
Gözləri nur, xoş camallı ustadım.
Dür tökülür sənin şirin dilindən,
Amalı düz, pür kamallı ustadım.

Tənə sözlər könülləri incidir,
Can sağlığı bəşərin sevincidir,
Sazın-sözüm mirvaridir, incidir
Dövləti eşq, cəh-cəlallı ustadım.

İnsan arzulara çata həmişə,
Sevinclə yol ala o, hər görüşə
Təvaqqe edirəm mən doxsan beşə,
Olmasın il qeyli-qallı ustadım.

## AŞIQ SƏXAVƏT

*(Xancığazlı)*

Səbirsizliklə gözləyir
Yolunu Ellər ay dayı.
Hər tərəfdə tər bənövşə
Açılıb güllər ay dayı.

Fəsilləri bahar yazlı,
Gözəlləri işvə, nazlı
Aşıqları telli sazlı,
Oxur bülbüllər ay dayı.

Vurğunuyam bu sənətin,
İlqarı var Səxavətin.
Qoy çəkilsin müxənnətin,
Gözünə millər ay dayı.

*1987-ci il*

## ŞƏMİSTAN GÖYCƏLİ – Şair

Milyonların həm sevinci,
Həm qəmisən ay Qaracan.
Sazlı-sözlü bir dünyasan,
Həmdəmisən ay Qaracan.

Qulaqlardan getməz sözün.
Batmaz səsin, itməz izin.
Haqq ilə, nahaqqın, özün
Hakimisən ay Qaracan.

Fərəhimsən, Vüqarınla,
Düz əhdin, düz İlqarınla,
Pozulmayan qərarınla,
Dağ kimisən ay Qaracan.

## QARACAN BORÇALI

Aşıqlıq Adəmdən qalıb,
Arzulayan, diləyən var.
Hərə bir cür fəryad eylər,
İnlədən var, inləyən var.

Bəmdə qəmi, zildə dəmi,
Çağlayan telmi, pərdəmi,
Adəmi, Qorqud dədəmi,
Dindirən var, dinləyən var

Aqil anlayar səsini
Ruh oxşayar həvəsini.
Gül ətirli nəfəsini
İylədən var, iyləyən var.

İlham gələr ürəyindən,
Nur tökülər diləyindən,
Bu sənəti ələyindən
Qaracan tək ələyən var.

## DUVAQQAPAMA

Qönçələrim açır çiçək,
Bir-birindən gözəl, göyçək.
Ümidvaram bir güləcək
Arzularım qismətimlə.
Gözəl dövran, xoş gələcək,
Şən günlərim qabaqdadı,
Al şəfəqli gün görəcək.
Fikrim səsdə, soraqdadı,
Xəyalım sözlər bulacaq.
Yazdıqlarım azdı hələ,
Ürəklərdə səslənəcək,
Düşəcəkdi dildən-dilə,
Keçəcəkdi nəsillərə,
Neçə-neçə eldən-elə.
Ay Qaracan, gül qoxulu
Şölə saçan əməllərin
Günəş kimi nur səpəcək
Tarixlərə indən belə.

# XATİRƏLƏR





# *Tələbəlik illəri*



*Dastan axşamı*




*Şəyirdlərlə birlikdə*



***Sumqayıt şəhər S. Vurğun adına mədəniyyət sarayı. Sakinlərlə görüş zamanı***



***Aşıq Ələsgər rolunda***

***Saxa (Yakutya) respublikasında "Isıx" bayramı***





***Şəyirdlik illəri***

# Mündəricat

**GƏRAYLILAR** ........ 3
EYLƏ ........ 4
HALAL OLSUN ........ 4
SƏBR EYLƏ ........ 5
ELLƏR OĞLUYAM ........ 5
ZARAFAT ........ 6
OLMASIN ........ 6
DƏRDİN ALIM ........ 7
DÜNYA ........ 8
QARACANAM ........ 8
DÜŞÜNÜRƏM ........ 9
QARACAN BORÇALIYAM MƏN ........ 9
MƏNİM ........ 10
NEÇƏ ELDƏ, MAHALDAYAM ........ 10
BALA-BALA ........ 11
CEYRANIM ........ 11
DAĞLAR ........ 12
NƏVƏM AYLAYA ........ 12
BƏNÖVŞƏ ........ 13
HƏYAT YOLDAŞIM BALLI XANIMA ........ 13
QOCALDIM ........ 14
GÖSTƏRMƏ MƏNƏ ........ 15
MƏNİM ........ 15
QARAÇI ........ 16
BELƏLƏRİ DƏ VAR ........ 16
QONDARMA AŞIQLARA ........ 17
OLA ........ 17
KÖNLÜNDƏ-KÖNLÜNDƏ ........ 18
AŞIQ VƏ BÜLBÜL ........ 18
ETİBARSIZ ........ 19
BALASAN ........ 19
OLA ........ 20

TƏRGİ MEY....20
YAXŞIDI....21
MEHRİBANIM....21
MƏNİ....22
ÜMÜDİMDƏN QIRDI MƏNİ....22
ŞƏRƏFLƏ UCALAN MƏNƏM....23
DOĞRU, DÜZGÜN YAZAN MƏNƏM....24
CEYRAN....25
BORÇALININ XRAM ÇAYINA....26
AŞIQ CƏMİL QAÇAĞANLI....27
OLDU....28
MƏN BORÇALI BALASIYAM....29
ŞİRİN XATİRƏLƏR....30
DAĞLAR....31
DOSTUM ƏHMƏDXANA....32
SÜNNƏT TOYUNDA....33
BAX....34
DAĞLAR....35
DOSTUM VƏLİ ƏSGƏR OĞLUNA....35
AĞRIN ALIM....36
MƏNƏ....36
**QOŞMALAR....37**
AŞIQ ƏLƏSGƏRƏ....38
SÖZ DE, SÖZ OLSUN....39
GƏRƏK....39
AĞRIMA ÜRƏYİM, AĞARMA SAÇIM....40
NƏ QALDI....41
TƏKƏLİ SEİD SUCAYA....41
ELOĞLUM ADİL ƏMCƏN OĞLUNA....42
ŞƏYİRDLIƏRİMİN SUALLARINA CAVAB....42
VARIYMIŞ....43
TELLƏR....43
YERİNDƏDİ....44
MƏN....44
ELƏ BİL BU KƏNDDƏ YAŞAMAMIŞAM....45
ÇOBAN ƏMİ....45

HEYİF ... 46
OLACAQDIR ... 46
SAZIM ... 47
YADIMA DÜŞDÜ ... 47
ODUMUZA-ODUMUZ ... 48
MƏNƏ ... 48
SARYAL ... 49
QARDAŞIM MƏHƏRRƏMƏ ... 49
QARDAŞIM MƏHƏRRƏMİN MƏZAR DAŞINA ... 50
TƏBRİZ ... 50
ÖZ AMANIM, ÖZ AHIM ... 51
DANIŞMAQ ... 51
HƏQİQƏT ... 52
YALAN ... 52
BƏSİMDİ ... 53
MƏNİM ÖZ MƏNLİYİM, MƏTİNLİYİM VAR ... 53
DOLANDIRIR ... 54
KÖÇÜBDÜ ... 54
QAYIT GƏL ... 55
KİRVƏLƏR ... 55
QONŞULAR ... 56
GÜNAHDI ... 56
20 YANVAR HADİSƏLƏRİNƏ ... 57
TOYNUZ MÜBARƏK! ... 57
HAQQ, ƏDALƏT ... 58
NƏVƏM BELLAYA ... 58
VÜQAR ... 59
OĞLUM İLQARA ... 59
OLSUN ... 60
NAŞÜKÜR OLMADIM, OLMARAM DA MƏN ... 61
TOYDA ... 61
OLMUŞAM ... 62
XANCIĞAZLI ... 62
NƏDƏNDİ, NƏDƏN ... 63
QALDI ... 63
DEYƏ ... 64

OLMA....64
OLUM....65
NƏ MİNNƏT ETMİRƏM, NƏ YALVARMIRAM....65
GÜLÜR....66
GÖZƏL....66
BİLSƏYDİM DÜNYAYA ERKƏN GƏLƏRDİM....67
GƏTİRMİŞƏM....67
CEYRAN XANIM....68
KƏSİLDİ....68
MƏCBUR OLDUM YAZAM....69
YAZIR, YAZSIN....69
SƏN SAMAN ALTINDAN SU YERİDƏNSƏN....70
BAŞ ÜSTƏ....70
KÖPƏK OĞLU....71
HƏYATIN ƏN QƏMLİ GÜNÜ DƏ XOŞDU....71
YADIMA DÜŞDÜ....72
GƏLMİŞƏM....73
NOLAYDI BİR QIZIM OLAYDI MƏNIM....74
TƏKƏLİ....75
BORÇALININ BABƏKƏR DAĞLARINA....*76*
CALAL BABA....77
ANA....78
MƏNİM....78
EYLƏMİŞƏM....79
OLMUŞAM....79
MÜBARƏK....80
BORÇALI AŞIQ ƏMRAHA....80
DOSTUM....81
BİLMƏDİM....81
84 YAŞINDA DÜNYASINI DƏYİŞƏN ANAM TÖHVƏ MƏHƏMMƏDRZA QIZINA....82
GÖRÜNÜR....83
NƏSİHƏTNAMƏ....83
YANDI....84
OĞLANLARIMA NƏSİHƏT....85
YERİNDƏ....86

GƏRƏK ........ 86
QAĞA ........ 88
QAYTAR ........ 89
DEYİRLƏR ........ 90
**TƏCNİSLƏR ........ 91**
TƏCNİS ........ 92
DODAQDƏYMƏZ TƏCNİS ........ 92
CIĞALI TƏCNİS ........ 93
DODAQDƏYMƏZ. CIĞALI TƏCNİS ........ 94
**DİVANİLƏR ........ 95**
FAYDASI NƏ ........ 96
XUDA ........ 97
AYTƏKİN ........ 98
**MÜXƏMMƏSLƏR ........ 99**
CAVANLIQ ........ 100
VAR ........ 101
BORÇALI ........ 102
DƏDƏ MƏCLİSİNDƏ ........ 105
GƏDƏ MƏRƏKƏSİNDƏ ........ 106
ÇOBAN İSA HAQQINDA ........ 107
**DEYİŞMƏLƏR ........ 113**
AŞIQ ABBAS TURABOVLA DEYİŞMƏ ........ 114
ŞƏYİRDİM SAMİRƏ ELQIZI İLƏ DEYİŞMƏ ........ 115
ŞAİR ƏVƏZ MAHMUD LƏLƏDAĞLADEYİŞMƏ ........ 117
AŞIQ - ŞAİR ALQAYIT XƏLİLOVLA DEYİŞMƏ ........ 121
AŞIQ CƏMİL QAÇAĞANLI İLƏ DEYİŞMƏ ........ 123
XUDAVERDİ QASIMOVLA DEYİŞMƏ ........ 124
**BAYATILAR ........ 125**
**QOŞMALAR, GƏRAYLILAR ........ 129**
FAZİLƏ ........ 130
MƏRƏKƏDƏ ........ 131
QORU MƏNİ ........ 132
BU DÜNYADA ........ 132
MAMOĞLU ........ 133
ETİBARSIZ ........ 134
BABA YURDU ........ 135

GERİ DÖNMƏZ ÖTƏN GÜNLƏR....................136
TELLİ SAZ....................137
TALEYRANIM, TAMERLANIM....................138
ATALAR DEYİR....................139
ÜSTƏ....................140
YALTAQ....................141
FƏLƏK....................142
DÜNYA....................143
**RÜBAİLƏR....................144**
QIRMIZI (SINIQ) KÖRPÜ....................146
TƏKƏLİ NAHİYƏSİ....................147
**HAQQIMDA DEYƏNLƏR....................148**
ALQAYIT XƏLİLOV – aşıq-şair....................149
TOFİQ MƏMMƏD – şair-jurnalist....................149
XUDAVERDİ QASIMOV – şair....................150
ƏVƏZ LƏLƏDAĞ – şair, publisist....................151
SOLTANMƏHƏMMƏD – şair....................151
MƏCNUN GÖYÇƏLİ – şair....................152
AŞIQ FƏRƏC MURADİ (İran)....................155
İBRAHİM (İran)....................155
XƏNGƏL....................156
ZƏLİMXAN YAQUB-şair....................157
SAZ ALVERİ ƏHVALATI....................158
ƏJDƏR OL – şair-publisist....................161
İLHAM BAXIŞOĞLU - şair....................162
ƏRƏB PƏRƏNLU - İran....................162
AŞIQ SƏXAVƏT....................163
ŞƏMİSTAN GÖYCƏLİ - şair....................164
QARACAN BORÇALI....................165
DUVAQQAPAMA....................166
**XATİRƏLƏR....................167-171**

QARACAN BORÇALI

# MƏN BORÇALI BALASIYAM

*"AFPoliqrAF" mətbəəsində çap edilmişdir*

*Mətbəənin direktoru:* Fuad HÜSEYN
*Texniki redaktor:* Alik XANKİŞİYEV
*Dizayner:* Kəmalə FƏRHADOVA

Çapa imzalanmışdır: 28.08.2015
Şərti çap vərəqi: 11,5
Formatı: 70x199 $^{1}/_{16}$
Tiraj: 300

*Aşıq-şair Qaracan İsa oğlu Kərimli, 1947 ildə qədim Borçalı torpağının Təkəli kəndində dünyaya göz açıb. 1976 ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) bitirib.*

*19 mart 1984 ildə keçirilən Azərbaycan Aşıqlar Birliyinin IV Qurultayında, Birliyin İdarə Heyətinin üzvü seçilmiş və 18 fevral 1991-ci ildə AAB-nin sədrinin birinci müavini təyin edilmişdir.*

*24 aprel 1990-cı il və 10 may 1991-ci illərdə keçirilən «Xalq Yaradıcılığı» Ümumittifaq festivallarının laureatı olmuş və ordenlə təltif edilmişdir.*

*22 mart 1992-ci ildə Almata şəhərində keçirilən «Nauruz» və 22 iyun 1992-ci ildə Saxa (Yakutya) Respublikasında keçirilən «Isıx» bayramlarında iştirak etmək üçün Mədəniyyət Nazirliyinin xətti ilə Azərbaycanı təmsil etmişdi.*

*«Aşıq Pəri» Məclisinin təşkil olunmasında xüsusi fəaliyyəti olmuşdu. 20-dən artıq şəyirdə ustadlıq edib. Onların arasında Türkiyə, Gürcüstan, İran İslam Respublikasının və s. vətəndaşları var. 12 iyun 2004-ci ildə keçirlən AAB-nin V Qurultayında Birliyin İdarə Heyətinin sədri seçilmişdir.*

*«Ünvanımı sazdan soruş» (1998), «Çeşmə» (2002) adlı kitabların, «Gəraylı», «Qoşma», «Təcniz», «Divani», «Müxəmməs», «Bayatı» kimi şeir formalarının müəllifidir.*